QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 105 (5336) 14 **iyun** 2017-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# "Azərbaycan İslam həmrəyliyinin gücləndirilməsi işinə öz töhfəsini verir"

*Prezident İlham Əliyev müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib*



Səh 2

6

"Maliyyə mənbəyini gizlədən siyasi partiyalara qarşı ciddi qərarlar qəbul edilməlidir"



10

Seymur Orucov: "Yay məktəbi bu il tam fərqli olacaq"



7

Yeni Azərbaycan Partiyası xalq dəstəyinə malik qüdrətli siyasi təşkilatdır



# "Azərbaycan İslam həmrəyliyinin gücləndirilməsi işinə öz töhfəsini verir"

## *Prezident İlham Əliyev müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib*



***İyunun 13-də Prezident İlham Əliyev müqəddəs Ramazan ayı münasibətilə müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı görüşdə çıxış edib.***

Prezident İlham Əliyevin çıxışı

-Hörmətli səfirlər, mübarək Ramazan ayında bizim görüşlərimiz ənənəvi xarakter daşıyır. İlk növbədə, xahiş edirəm ki, mənim salamlarımı və ən xoş arzularımı təmsil etdiyiniz ölkələrin dövlət və hökumət başçılarına çatdırasınız.

Təmsil etdiyiniz ölkələrlə Azərbaycanın çox sıx əlaqələri vardır. Biz ikitərəfli formatda fəal əməkdaşlıq edirik və beynəlxalq arenada da bir-birimizi daim dəstəkləyirik. Xüsusilə BMT-də və digər beynəlxalq təşkilatlarda təmsil etdiyiniz ölkələrlə əməkdaşlığımız çox uğurludur.

Bildiyiniz kimi, Azərbaycan İslam Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. Təşkilatın xətti ilə Azərbaycanda bir çox mötəbər tədbirlər keçirilmişdir. Ötən il İslam Əməkdaşlıq Təşkilatının Türkiyədə keçirilmiş Zirvə görüşündə də təşkilat və onun üzvləri Azərbaycana bir daha öz dəstəyini bildirmişlər. Azərbaycan da öz növbəsində bütün beynəlxalq təşkilatlarda müsəlman ölkələrini dəstəkləyir. Keçənilki Zirvə görüşündə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı da çox önəmli addımlar atılmışdır, qərar qəbul edilmişdir. İslam Əməkdaşlıq Təşkilatı münaqişə ilə bağlı bir çox sənədlər, qətnamələr qəbul etmişdir ki, o sənədlərdə Azərbaycanın haqlı mövqeyi dəstəklənir. Keçən il isə Ermənistanın təcavüzü ilə bağlı Kontakt Qrupu yaradıldı və biz bunu da çox yüksək qiymətləndiririk. Müsəlman ölkələri tərəfindən göstərilən dəstək və həmrəylik bizim üçün çox önəmlidir. Bu dəstəyə görə mən təşkilatın üzvlərinə minnətdaram.

Ermənistan Azərbaycanın torpaqlarının bir hissəsini uzun illərdir ki, işğal altında saxlayır, bütün beynəlxalq normaları kobudcasına pozur, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə biganə qalır, işğal edilmiş torpaqlarda bizim bütün tarixi, dini abidələrimizi məhv edib və bunu təsdiqləyən bir çox sənədlər, videomateriallar vardır. Erməni işğalı nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma torpağında qaçqın-köçkün vəziyyətinə düşmüşdür. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız beynəlxalq hüququn norma və prinsiplərinə uyğun, Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapmalıdır. Biz bütün beynəlxalq təşkilatlarda münaqişə ilə bağlı həqiqətləri ortaya qoyuruq, dünya ictimaiyyətinə çatdırırıq. Əlbəttə, bunu müsəlman ölkələrinin ictimaiyyətinə də çatdırırıq ki, bu ölkələrdə yaşayan bizim qardaşlarımız ermənilər tərəfindən işğal edilmiş torpaqlarda hansı vəhşiliklərin törədildiyini görsünlər. Bu vəhşilik təkcə Azərbaycana qarşı deyil, bütün müsəlman aləminə qarşı törədilib. Bu yaxınlarda işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndində ucaldılmış məscid Şuşa məscidinin memarlığını təkrarlayır. Şuşa məscidləri, Ağdam məscidləri, işğal altında olan digər şəhərlərimizin məscidləri ermənilər tərəfindən dağıdılıb. Bu cinayət bütün müsəlman aləminə qarşı törədilmiş cinayətdir. Biz istəyirik ki, bütün dünya müsəlmanları bunu bilsinlər.

Azərbaycan İslam həmrəyliyinin gücləndirilməsi işinə öz töhfəsini verir. Bildiyiniz kimi, bu il Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilmişdir. İl ərzində ölkəmizdə və digər ölkələrdə bir çox tədbirlər keçirilmişdir. Bu ili "İslam Həmrəyliyi İli" elan etməyimiz bizim siyasətimizi əks etdirir, niyyətimizi göstərir. Mən tam əminəm ki, biz - müsəlman ölkələri öz aramızda olan problemləri dinc yolla həll etməliyik və həmrəyliyi gücləndirməliyik.

Bu il, eyni zamanda, Azərbaycanda IV İslam Həmrəyliyi Oyunları keçirilmişdir. Təmsil etdiyiniz ölkələrin idmançıları Azərbaycanda bu Oyunlarda iştirak edirdilər. Bir çox qonaqlarımız olmuşdur. Əminəm ki, onlar öz ölkələrinə ən xoş təəssüratlarla qayıdıblar. İslam Həmrəyliyi Oyunları sadəcə idman yarışı deyil. Biz istəyirdik ki, bu Oyunlar İslam aləmini birləşdirsin. İdmançılar, qonaqlar Bakıda olarkən bir ailə kimi yaşayırdılar və əminəm ki, bu günlər ərzində İslam həmrəyliyi ən yüksək zirvəyə qalxmışdır. Biz də çalışmalıyıq ki, bu həmrəyliyi bu yüksək zirvədə saxlayaq. Əminəm ki, belə də olacaq. Bir daha sizi ürəkdən salamlayıram və sizə uğurlar arzulayıram.

X X X

Daha sonra Fələstin Dövlətinin Azərbaycan Respublikasındakı səfiri Nasir Əbdül Kərim Əbdül Rəhim çıxış edib:

-Azərbaycan Respublikasının Prezidenti, Zati-aliləri cənab İlham Əliyev.

Əvvəlcə mən bütün müsəlman səfirlər adından energetika naziri Natiq Əliyevin vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verirəm. Allah rəhmət eləsin. Azərbaycan Respublikasında akkreditə olunmuş müsəlman ölkələrinin səfirləri və nümayəndələri adından Sizi mübarək Ramazan bayramı münasibətilə təbrik etməkdən şərəf hissi duyuram. Bu fürsətdən istifadə edərək, Sizinlə görüşmək üçün dəyərli vaxtınızın bir hissəsini bizə ayırdığınıza görə bütün müsəlman səfirlər adından Zati-alinizə səmimi təşəkkürümüzü bildirirəm.

Cənab Prezident, qeyd etmək yerinə düşərdi ki, Sizin sayənizdə bu cür görüşlər müsəlman ölkələrini bir-birinə bağlayan qardaşlıq tellərini möhkəmləndirmək və inkişaf etdirməkdə qətiyyətinizi əks etdirən xoş bir ənənəyə çevrilib.

***Ardı Səh. 3***

# "Azərbaycan İslam həmrəyliyinin gücləndirilməsi işinə öz töhfəsini verir"

## *Prezident İlham Əliyev müsəlman ölkələrinin Azərbaycandakı səfirlərini və diplomatik nümayəndəliklərinin rəhbərlərini qəbul edib*




Əvvəli Səh. 2

Bu gün keçirilən görüş xüsusi ilə əhəmiyyətlidir, çünki o, "İslam Həmrəyliyi İli"ndə və ilhamlandırıcı hisslər oyatmış möhtəşəm IV İslam Həmrəyliyi Oyunlarından sonra keçirilir. Hamımız bu Oyunlardan fəxr hissi duyduq və eyni zamanda, biz müsəlman dəyərlərinə uyğun olaraq, sülh, idman və harmoniya mesajını qəbul etdik və yaydıq.

Bu mübarək ay ərzində bütün müsəlmanlar İslamın ülvi dəyərlərini xatırlayır, öz qəlblərini və düşüncələrini paklandırır, onları birliyə, sülhə, əxlaqi dəyərlərə və mərhəmətə xidmət etməyə yönəldir, qərib və ehtiyacı olan insanlara daxilimizdə xeyriyyəçilik hissələrini oyadır, bir-birimizin günahlarını bağışlayır, qardaşlıq ruhunda ümumi taleyimizi birgə dərk edərək, sülh, həmrəylik və firavanlıq naminə bir yerə toplaşırlar.

Cənab Prezident, Azərbaycan Respublikasının nisbətən gənc olmasına, müstəqilliyinin başlanğıcında bir çox təhdidlərin olmasına baxmayaraq, onlar ölkə rəhbərliyinin müdrikliyi və uzaqgörənliyi sayəsində həll edilmişdir. Azərbaycan həmin mərhələləri uğurla keçmiş və özünün qədim İslam irsini və mədəniyyətini qürur hissi ilə qoruyaraq, gələcəyə doğru qətiyyətlə addımlayan və müasirliyə qovuşan, inkişaf edən dövlətə çevrilmişdir.

Bu qardaş ölkədə müsəlman səfirlər güclü inkişafın şahididirlər. Ölkəniz inanılmaz sürətlə güclü inkişafı, yenilənməni, islahatları və bir çox sahələrdə uğurlu dəyişiklikləri təmin edə bilmişdir.

Müsəlman ümmətinin ayrılmaz və mühüm üzvü olan Azərbaycan işğal olunmuş müsəlman əraziləri - Əl-Qüds Əl-Şərif kimi məsələlərdə haqq işini dəstəkləməklə İslamın əsl ruhunu və məsajını özündə əks etdirir. Bu gün ölkəniz bir çox çağırışlara qarşı göstərilən ümumi səylərin ön cərgəsindədir. Onlardan biri islamofobiya kimi cəfəng fikirlərlə bağlıdır. Siz bu mübarizəni düşünülmüş şəkildə, danılmaz mədəni, tarixi və dini əsaslarla aparırsınız, mədəniyyətlərarası və sivilizasiyalararası dialoq mövzusunda Bakıda bir çox mühüm beynəlxalq konfranslar keçirirsiniz. Beləliklə, fərqlərin aradan qaldırılması, sivilizasiyaların toqquşması kimi yanlış arqumentin rədd edilməsi, İslamın bəşəriyyət irsinin qorunub saxlanılmasında oynadığı tarixi rolunun təqdim edilməsi, insan biliyinin və mədəniyyətinin bütün sahələrdə onun Qızıl dövründə verilmiş dəyərli töhfələrin təşviq edilməsi üçün böyük səylər göstərirsiniz.

Şübhəsiz ki, Azərbaycan İslamın əsl ruhunu əks etdirən, sülhün, inklüzivliyin, tolerantlığın əsas yer tutduğu ən nümunəvi məkanlardan biridir. Burada müxtəlif dinlərin nümayəndələri sülh şəraitində yan-yana yaşayırlar. Onlar ölkənizdə bir-biri ilə harmoniyada çalışmaq imkanına malikdirlər. Beləliklə, bütün dünyadan gəlmiş qonaqlar ölkələrinə Azərbaycan və İslam haqqında təsəvvür etdikləri imici müsbət qaydada daha yaxşı qavrayaraq qayıtdılar.

Cənab Prezident, müsəlman aləmi Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir, Dağlıq Qarabağ münaqişəsinə gəldikdə, ölkənizin tərəfindədir və beynəlxalq hüququn, BMT-nin bütün qətnamələrinin ayrı-ayrı deyil, bərabər qaydada həyata keçirilməsi çağırışına qoşulur.

Bu müqəddəs ayda, cənab Prezident, biz arzu edirik ki, işğal olunmuş bütün müsəlman əraziləri və müqəddəs məkanlar yaxın vaxtlarda öz əsl sahiblərinə qayıtsın. Arzu edirik ki, dağıntı və terror yayaraq, İslamın adını ləkələyən pis əməllərə və səhv düşüncələrlə yaşayan məkrli qüvvələrə ümmətimiz qalib gəlsin, doğma ölkələrimizin üzərindəki qara buludlar dağılsın, fərqləri bir kənara qoyaraq, qardaş ölkələrimizdə sülhün və harmoniyanın bərqərar olunması naminə innovasiya, irəliləyiş sayəsində insan sivilizasiyasına ən dəyərli töhfə verən tərəf kimi özünün layiqli yerini bərpa etsin.

Zati-aliləri, müsəlman səfirlər və missiya rəhbərləri adından Sizə və ailənizə möhkəm cansağlığı, səadət və uğurlar, qardaş Azərbaycan xalqına isə davamlı sülh, irəliləyiş və firavanlıq arzulayıram.

Allah Azərbaycanı qorusun!

Allah İslam ümmətimizi qorusun!

Sağ olun, cənab Prezident!

X X X

Sonda xatirə şəkli çəkdirildi.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev Ramil Qasımova Azərbaycan Respublikası Prezidentinin xüsusi olimpiya təqaüdünün verilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamda qeyd olunur ki, XV Rio-de-Janeyro Yay Paralimpiya Oyunlarında qazandığı yüksək nailiyyətə görə Ramil Famil oğlu Qasımova Azərbaycan Prezidentinin xüsusi olimpiya təqaüdü verilsin. Nazirlər Kabinetinə bu Sərəncamdan irəli gələn məsələləri həll etmək tapşırılıb.

***

Prezident İlham Əliyev Vüqar Müzəffər oğlu Səfərlinin Azərbaycan Respublikasının Prezidenti Yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun İcraçı direktoru təyin edilməsi haqqında sərəncam imzalayıb.

# Prezident İlham Əliyev MDB üzv dövlətlərinin Bakıda səfərdə olan gömrük xidməti rəhbərlərini qəbul edib

***İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakıda keçiriləcək Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 65-ci iclasında iştirak etmək üçün ölkəmizdə səfərdə olan Rusiyanın, Belarusun, Özbəkistanın, Qırğızıstanın, Tacikistanın, Qazaxıstanın gömrük xidmətlərinin rəhbərlərini və MDB İcraiyyə Komitəsinin sədri-icra katibi Sergey Lebedevi qəbul edib.***



AZƏRTAC xəbər verir ki, Prezident İlham Əliyev Müstəqil Dövlətlər Birliyinə üzv dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 65-ci iclasında səmərəli müzakirələrin aparılacağına və müvafiq qərarların qəbul ediləcəyinə ümidvar olduğunu bildirdi. Dövlətimizin başçısı Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin Gömrük Xidməti Rəhbərləri Şurasının iclasının Bakıda keçirilməsindən məmnunluğunu ifadə etdi. Gömrük xidmətlərinin ölkələrin inkişafında mühüm rol oynadığını vurğulayan Prezident İlham Əliyev büdcə gəlirlərinin təmin olunmasında və ümumi iqtisadi inkişaf dinamikasında bu xidmətlərin rolunu qeyd etdi. Dövlətimizin başçısı Azərbaycanda gömrük sahəsində son zamanlar ciddi islahatların aparıldığını vurğulayaraq bildirdi ki, ticarət dövriyyəsinin bir qədər azalmasına baxmayaraq, bu islahatların səmərəli şəkildə həyata keçirilməsi nəticəsində gömrük rüsumlarının yığımı artıb. Prezident İlham Əliyev qarşılıqlı təcrübə mübadiləsinin aparılmasının önəmini qeyd etdi. Azərbaycan üçün ümumilikdə MDB çərçivəsində əməkdaşlığın bütün sahələrinin mühüm əhəmiyyət daşıdığını deyən dövlətimizin başçısı ölkəmizdə MDB çərçivəsində çoxlu sayda müxtəlif tədbirlərin keçirildiyini vurğuladı. Prezident İlham Əliyev Müstəqil Dövlətlər Birliyinə üzv ölkələrin Gömrük Xidməti Rəhbərləri Şurasının 65-ci iclasının fəaliyyətinə uğurlar arzuladı.

Rusiya Federal Gömrük Xidmətinin rəhbəri Vladimir Bulavin bütün iştirakçılar adından Şuranın növbəti iclasının Bakıda keçirilməsi üçün yaradılan imkana görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. Şuranın 65-ci iclasının Bakıda keçirilməsinin əlamətdar hadisə olduğunu deyən Vladimir Bulavin bu tədbirin MDB-yə üzv dövlətlərin gömrük xidmətləri rəhbərləri arasında qarşılıqlı anlaşmanın səmərəli informasiya mübadiləsi işinə xidmət edəcəyinə əminliyini ifadə etdi və bu gün MDB-yə üzv ölkələr arasında gömrük sahəsində informasiya mübadiləsinin yüksək səviyyədə aparıldığını vurğuladı. O, bu cür tədbirlərin, eyni zamanda, gömrük rəsmiləşdirilməsi və gömrük nəzarəti ilə bağlı aktual məsələlərin müzakirəsi üçün də yaxşı imkan yaratdığını dedi.

MDB İcraiyyə Komitəsinin sədri-icra katibi Sergey Lebedev MDB ölkələri Gömrük Xidməti Rəhbərləri Şurasının 65-ci iclasının yüksək səviyyədə təşkilinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi və qeyd etdi ki, Azərbaycan Müstəqil Dövlətlər Birliyi çərçivəsində artıq bir sıra mühüm tədbirləri uğurla həyata keçirir. O, Azərbaycana budəfəki səfəri zamanı Bakının daha da gözəlləşdiyinin şahidi olduğunu və bunun onda dərin təəssürat yaratdığını dedi.

# Prezident İlham Əliyev AŞPA-nın Monitorinq Komitəsinin həmməruzəçilərini qəbul edib

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Avropa Şurası Parlament Assambleyasının (AŞPA) Monitorinq Komitəsinin həmməruzəçiləri Sezar Florin Predanı və Stefan Şennakı qəbul edib.***

AZƏRTAC xəbər verir ki, AŞPA Monitorinq Komitəsinin həmməruzəçiləri səfər çərçivəsində Bakıda keçirəcəkləri görüşlər barədə dövlətimizin başçısına məlumat verdilər. Görüşdə Azərbaycan ilə Avropa Şurası Parlament Assambleyası arasında əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri ilə bağlı məsələlər müzakirə olundu, əməkdaşlıq əlaqələrinin daha da inkişaf etdirilməsi imkanları ətrafında fikir mübadiləsi aparıldı.



# Azərbaycan Prezidenti İlham Əliyev mərhum energetika naziri Natiq Əliyevin məzarını ziyarət edib



İyunun 13-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mərhum energetika naziri, "Şöhrət" ordenli, Əməkdar Mühəndis Natiq Əliyevin məzarını ziyarət edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı İlham Əliyev Fəxri xiyabanda Natiq Əliyevin məzarının önünə gül dəstələri qoydu, xatirəsinə dərin ehtiramını bildirdi. Prezident İlham Əliyev Natiq Əliyevin oğlu Fərhad Əliyevə bir daha başsağlığı verdi. Fərhad Əliyev atasının xatirəsinə göstərilən ehtirama görə dövlətimizin başçısına minnətdarlıq etdi.



# "Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli əlaqələr uğurla inkişaf edir"

*Prezident İlham Əliyev Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirini qəbul edib*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Giorgi Qaxarianı qəbul edib. AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı Azərbaycan ilə Gürcüstan arasında ikitərəfli əlaqələrin uğurla inkişaf etdiyini və bütün sahələrdə fəal əməkdaşlığın həyata keçirildiyini, ölkələrimizin bir-birini dəstəklədiyini vurğuladı. İqtisadi sahədə əlaqələrə toxunan Prezident İlham Əliyev bu istiqamətdə yaxşı nəticələrin əldə olunduğunu qeyd etdi. Azərbaycanın Gürcüstana investisiyalar yatırmasına və Azərbaycan şirkətlərinin Gürcüstanda fəaliyyətinə toxunan dövlətimizin başçısı ölkələrimiz arasında ticarət dövriyyəsinin artırılması yollarının müəyyənləşdirilməsinin vacibliyini də vurğuladı. Prezident İlham Əliyev qeyri-enerji, ticarət və digər sahələrdə də əlaqələrin genişləndirilməsi imkanlarının araşdırılmasının zəruriliyini qeyd etdi. Ölkələrimizin nəqliyyat, energetika sahələrində qlobal layihələri uğurla həyata keçirdiyini vurğulayan dövlətimizin başçısı Azərbaycan ilə Gürcüstanın digər tərəfdaşlarla birlikdə bu layihələrin reallaşmasında çox səmərəli yanaşma nümayiş etdirdiklərini bildirdi.

Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Giorgi Qaxaria Prezident İlham Əliyevlə görüşündən böyük şərəf hissi keçirdiyini dedi. O, Azərbaycanın energetika naziri Natiq Əliyevin vəfatı ilə bağlı Prezident İlham Əliyevə başsağlığı verdi. İqtisadi sahədə əməkdaşlığın uğurla inkişaf etdiyini deyən gürcüstanlı nazir bu ilin dörd ayında ölkələrimiz arasında ticarət dövriyyəsinin 49 faiz artmasını bunun çox yaxşı göstəricisi kimi dəyərləndirdi. Görüşdə ölkələrimiz arasında ticarət, investisiya, nəqliyyat, turizm, kənd təsərrüfatı sahələrində əməkdaşlığın perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# "Azərbaycan ilə Bolqarıstan arasında münasibətlər çox yaxşı səviyyədədir"

*Prezident İlham Əliyev Bolqarıstanın baş prokurorunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib*



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 13-də Bolqarıstan Respublikasının baş prokuroru Sotir Tsatsarovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, Sotir Tsatsarov Bolqarıstan Prezidenti Rumen Radevin salamlarını dövlətimizin başçısına çatdırdı. Ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan xalqı tərəfindən həyata keçirilən işlərə öz rəğbətini ifadə edən Bolqarıstanın baş prokuroru respublikamızda gedən inkişaf proseslərinin onlarda dərin təəssürat yaratdığını bildirdi. Qonaq hər iki ölkənin prokurorluq orqanları arasında uğurlu əməkdaşlığın həyata keçirildiyini, bu əməkdaşlığın yüksək peşəkar səviyyədə və dostluq şəraitində aparıldığını vurğuladı və Bakıya səfərini mövcud əlaqələrin davamı kimi dəyərləndirdi.

Azərbaycan ilə Bolqarıstan arasında münasibətlərin çox yaxşı səviyyədə olduğunu deyən Prezident İlham Əliyev əlaqələrimizin siyasi, iqtisadi, enerji, mədəniyyət və digər sahələrdə uğurla inkişaf etdiyini bildirdi. Özünün Bolqarıstana, Bolqarıstan Baş nazirinin Azərbaycana səfərini xatırlayan dövlətimizin başçısı bu səfərlərin ölkələrimiz arasında əlaqələrin möhkəmləndirilməsi baxımından önəmini qeyd etdi. Azərbaycan ilə Bolqarıstanın bütün sahələrdə əlaqələrinin hər iki ölkənin rəhbərlikləri arasında mövcud olan əməkdaşlıq və qarşılıqlı dəstək səviyyəsinə qaldırılmasının əhəmiyyətini vurğulayan Prezident İlham Əliyev prokurorluq orqanlarının yaxşı əməkdaşlığının ikitərəfli əlaqələrimizin genişləndirilməsi işinə xidmət etdiyini dedi və bu səfərin münasibətlərimizin perspektivləri ilə bağlı məsələlərin müzakirə edilməsi üçün yaxşı fürsət yaratdığını bildirdi.

Dövlətimizin başçısı Bolqarıstan Prezidenti Rumen Radevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Bolqarıstan Prezidentinə çatdırmağı xahiş etdi.

## Mübariz Qurbanlı: "Milli Qurtuluş Günü Azərbaycanı xaosdan intibaha apardı"



"Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı həqiqi mənada, tarixi, ümummilli və siyasi baxımdan da Milli Qurtuluş Günü kimi qeyd olunur. 15 iyun tarixinin Milli Qurtuluş Günü kimi qeyd olunması təsadüfi deyil. Bu, tarixi hadisələrdən nəticələrin ümumiləşdirilməsi əsasında əldə olunan qərardır və qərar həmin dövrün deputatlarının təklifi əsasında aparılan geniş müzakirələrdən sonra Milli Məclis tərəfindən qəbul edilib". SİA-nın xəbərinə görə, bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı deyib.

O bildirib ki, 1990-cı illərdə baş verənləri gözü ilə görənlərlə yanaşı, onu kitablardan oxuyanlar da var: "Bu baxımdan belə əlamətdar günlərlə bağlı geniş tədbirlər keçirilməlidir ki, gənclərimiz həmin dövrdə baş verənlərlə bağlı məlumatlansınlar. Azərbaycanın dövlət müstəqilliyi əldə edildikdən sonra millət olaraq qarşımızda çox mühüm vəzifələr dayanırdı ki, bunlardan biri də milli müstəqilliyin dönməzliyini təmin etmək idi. Bunu təmin etmək üçün isə müəyyən şərtlər var idi ki, onları mütləq şəkildə həyata keçirmək lazım idi. Sovet İttifaqının süqut etməsi, onun müxtəlif yerlərində ayrı-ayrı hadisələrə gətirib çıxarmışdı. Sovet İttifaqı çökməzdən öncə də həm Azərbaycanda, həm də Baltik Respublikalarında, Gürcüstanda, Qazaxıstanda böyük qan tökülməsi ilə müşahidə olunan hadisələr baş vermişdi. Onlardan ən böyüyü isə 20 Yanvarda Azərbaycanda baş verən faciə idi. Ona görə də Sovetlər İttifaqı çökdükdən sonra bütün xalqlar kimi, Azərbaycan xalqı da öz dövlət müstəqilliyininin bərpasını həyata keçirərək bir sıra səyləri, vacib məsələləri həll etməli idi. Ümumiyyətlə, tarixdə Azərbaycan xalqının böyük izi var və biz bu tarixi nailiyyətləri unutmamalıyıq".

M. Qurbanlı qeyd edib ki, 1990-ci illərin əvvəllərindən Azərbaycanın başqa müstəqillik qazanan xalqlardan fərqli cəhətləri var idi: "Belə ki, həmin dövrdə Azərbaycan Ermənistan tərəfindən təcavüzə məruz qalmışdı və xalqımız həmin müharibəni apara-apara müstəqil dövlət quruculuğunu həyata keçirməli idi. Bundan başqa həmin dövrdə Azərbaycanda proseslərdə siyasi təcrübəsi olmayan insanların siyasi arenada üst mövqeyə çıxması və ölkənin gələcək taleyinin həlli ilə əlaqədar mühüm strateji vəzifələrin düzgün, dəqiq müəyyən edə bilməyən adamların idarəçiliyə gəlməsi ölkəmiz üçün müəyyən çətinlik və problemlər yaratmışdı. Biz başqa Respublikalara baxsaq, orada siyasi elitanın ölkəsinin qarşısında duran vəzifələri dəqiq müəyyən edə bilməsini görə bilirik. Buna görə də onlar daha az təhlükə ilə üzləşmiş və problemlərini daha tez həll edə bilmişdilər. Bu baxımdan da Azərbaycanın müstəqilliyinin ilk illəri əslində ölkəmizdə xaos, qarşıdurma dövrü kimi və millətin qarşısında olan vəzifənin dəqiq şəkildə müəyyən edilməməsi ilə xarakterizə olunur. Məhz bunun nəticəsi idi ki, siyasi hakimiyyət uğrunda mübarizə qarışıqlıq olaraq Azərbaycanda qrupların toqquşmasına gətirib çıxarırdı ki, bundan da xarici qüvvələr xüsusilə də Ermənistan əlverişli şəkildə istifadə edərək ölkəmizə qarşı təcavüzünü genişləndirdi. Çox böyük, müdrik bir siyasət qurulmalı və bununla da Azərbaycanı xarici təhlükələrdən qorumaq, eyni zamanda ümumilli vəzifələri dəqiqləşdirərək milləti həmin vəzifələr ətrafında sıx birləşdirmək lazım idi. Lakin bu, çox ciddi məsələ idi. Bunu yalnız Ümummilli Lider Heydər Əliyev yerinə yetirə bildi".

YAP İcra katibinin müavini əlavə edib ki, Ulu Öndərin hakimiyyətə qayıdışı şəxsi ideya deyil, Azərbaycançılıq ideyasının təşəbbüsü idi: "Ümummilli liderin atdığı addımlar Azərbaycanı gerilikdən inkişafa, xaosdan intibaha apardı. Bu baxımdan 15 İyun- Milli Qurtuluş Günü bizim tariximizdir".

## Azərbaycan Respublikası Baş Prokurorluğu bəyanat yaydı



Azərbaycan Respublikası Milli Məclisinin deputatı Elman Nəsirovun Muxtarlı Əfqan Sabir oğlunun guya Azərbaycan və Gürcüstanın xüsusi xidmət orqanlarının birgə fəaliyyəti nəticəsində Tbilisidə tutularaq Azərbaycana gətirilməsi barədə kütləvi informasiya vasitələrinə verdiyi informasiyalar həqiqəti əks etdirmir. SİA-nın verdiyi məlumata görə bəyanatda deyilir: "Bəyan edirik ki, Azərbaycan hüquq mühafizə orqanları Gürcüstan xüsusi xidmət və digər hüquq mühafizə orqanları ilə Ə.Muxtarlının tutulması ilə bağlı əməkdaşlıq etməmiş və bu barədə Gürcüstan tərəfinə hər hansı müraciət olunma Əvvəllər də bildirildiyi kimi, ilkin istintaq araşdırmalarına əsasən Azərbaycan Respublikasının vətəndaşı Əfqan Muxtarlı 29 may 2017-ci il tarixdə saat 22:40-da Balakən rayonu ərazisində Azərbaycan Respublikasının mühafizə olunan dövlət sərhədini üzərində şəxsiyyətini təsdiq edən sənəd olmadan nəzarət-buraxılış məntəqələrindən kənarda Gürcüstandan Azərbaycan Respublikasına qanunsuz olaraq keçdikdən sonra qaçmağa cəhd edərkən Dövlət Sərhəd Xidmətinin əməkdaşları tərəfindən saxlanılıb. Ə.Muxtarlının xüsusi xidmət orqanlarının əməkdaşları tərəfindən Tbilisi şəhərində tutularaq Azərbaycan tərəfinə təhvil verilməsi barədə ayrı-ayrı kütləvi informasiya vasitələrində yaydığı məlumatlar uydurma xarakter daşıyır və ictimai rəyi çaşdırmaq məqsədi güdür. Hazırda cinayət işi üzrə Baş Prokurorluğun Ağır cinayətlərə dair işlər üzrə istintaq idarəsində istintaq davam etdirilir və işin hallarının tam, hərtərəfli və obyektiv araşdırılmaqla Ə.Muxtarlının əməllərinə hüquqi qiymət verilməsi təmin ediləcək."

## Siyavuş Novruzov: "Maliyyə mənbəyini gizlədən siyasi partiyalara qarşı ciddi qərarlar qəbul edilməlidir"



"Bu yaxınlarda Azərbaycanın Baş prokuroru da açıqlama verdi ki, bəzi partiyalar maliyyə mənbələri haqqında ictimaiyyətə və aidiyyatı strukturlara məlumat vermirlər. Baxmayaraq ki, biz bununla bğlı qanun qəbul etmişik və qanuna əsasən onlar həm MSK-ya, həm də digər strukturlara bu haqda hesabat verməlidirlər. Biz şəffaflığın təminatı ilə bağlı qanun qəbul etmişik və bu addımı vaxtında atmışıq". SİA-nın xəbərinə bunu Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri Siyavuş Novruzov parlamentin növbədənkənar iclasında çıxışı zamanı deyib. Hər bir məsələnin arxasında maliyyənin dayandığını deyən komitə sədri söyləyib ki, maliyyənin mənbəyi məlum olanda bir çox məsələr öz yerinə düşür: "Siyasi partiyaların birinin müavininin 41 dəfə bir ölkəyə səfər edib oradan pul çıxarıb gətirməsi təbii ki, sağlam məqsədə xidmət etmir. Əgər sağlam adamsansa, niyə bunu Azərbaycanda, bizim banklar vasitəsilə deyil, digər ölkələrin banklarından alırsan?". Milli Məclisdə terrorun maliyyələşməsi ilə bağlı qanun layihəsinə dəyişiklik edildiyini xatırladan S.Novruzov qeyd edib ki, amma bir müddət sonra bu qanun layihələrinə yenidən baxılmalıdır: "Əgər kimsə nizamnamə tələblərinə qarşı çıxırsa, onun haqqında kifayət qədər ciddi qərarlar qəbul edilməlidir. Çünki vətəndaşlarımızın taleyi hər şeydən yüksəkdə durmalıdır. Gələcək qanunlarda bu məsələlər sərtləşdirilməlidir". S.Novruzov vurğulayıb ki, Azərbaycanda bəzi partiyalar hesabatlarını təqdim etmir və ya təqdim edərkən sıfır rəqəm qeyd edir: "Hansı ki, onların kifayət qədər işçiləri, cangüdənləri, bahalı maşınları və digər yüksək şəraitləri var. Bu baxımdan düşünürəm ki, onlar yoxlanmalıdır. Əgər şəffafdırsa, bu qanunlardan qorxmamalı, öz maliyyə mənbəyini açıqlamalıdır".

## XİN: "Qarabağda gənclər konfransı Ermənistanın siyasi təxribatıdır"



Bu il sentyabrın 14-17-də Azərbaycan Respublikasının Ermənistan tərəfindən işğal edilmiş ərazilərində beynəlxalq gənclər konfransının keçirilməsi planlaşdırılır. Ermənistanın İdman və Gənclərlə İş üzrə Nazirliyi tərəfindən təşkil ediləcək konfransın məqsədi guya gənc mütəxəssislərin iştirakı ilə qondarma rejimin tanınmasının problem və perspektivlərini müzakirə etməkdir. Adətən bu kimi tədbirlərin əsas iştirakçılarını əsasən Ermənistan vətəndaşları və digər ölkələrdən olan iki-üç nəfər erməni əsilli şəxslər təşkil etsə də, burada Ermənistanın əsl məqsədi siyasi təxribat, qondarma rejimi təşviq etmək və dəvət olunan şəxsləri özünün siyasi təbliğat alətinə çevirməkdir. Bu fikirləri KİV-ə açıqlamasında Azərbaycan Xarici İşlər Nazirliyinin mətbuat xidmətinin rəhbəri Hikmət Hacıyev bildirib. Hikmət Hacıyev deyib: "Konfransa dəvət olunan xarici ölkə vətəndaşlarını Ermənistanın bu yalanına uymamağa və rəsmi Yerevanın əlində təbliğat alətinə çevrilməməyə, işğal olunmuş ərazilərə Azərbaycan Respublikasının ərazi bütövlüyü, suverenliyi və qanunlarının pozulması ilə müşayiət olunan qeyri-qanuni səfərlərdən çəkinməyə çağırırıq. Onu da nəzərə almaq lazımdır ki, Azərbaycan Respublikasının işğal olunmuş ərazilərinə qanunsuz səfərlər hüquqi məsuliyyət ehtiva edir. Vətəndaşları sözügedən tədbirə dəvət olunmuş ölkələri öz vətəndaşlarının bu konfransda qeyri-qanuni iştirakının qarşısını almaq üçün təsirli addımlar atmağa çağırırıq. Gənclər və idman Nazirliyi ilə əlaqəli şəkildə beynəlxalq gənclər təşkilatları da Ermənistanın bu növbəti təxribatı barədə məlumatlandırılacaq".

## Hikmət Babaoğlu: "15 iyun 1993-cü ildən başlayaraq Azərbaycanın idarəçiliyi əmin, etibarlı əllərdədir"



"15 İyun Milli Qurutluş Günü müasir Azərbaycan dövlətçiliyinin təməllərinin qoyulduğu gündür. 1993-ci ildə biz dövlət müstəqilliyimizlə vidalaşma təhlükəsi yaşayırdıq. Belə bir məqamda böyük dövlətçilik bacarığına malik, xalqı birləşdirəcək və siyasi-sosial təsisat, funksonal aparat quracaq liderə ehtiyac yaranmışdı. Bu şəxsiyyət isə Ulu öndər Heydər Əliyev idi. Ümummilli liderimiz Heydər Əliyev 1993-cü ilin 15 iyununda Azərbaycan xalqını siyasi baxımdan yenidən təşkilatlandıraraq onun müasir dövlətçiliyinin əsaslarını qoydu". Bu fikirləri SİA-ya açıqlamasında "Yeni Azərbaycan" qəzetinin baş redaktoru, Milli Məclisin deputatı Hikmət Babaoğlu deyib.

H.Babaoğlu bildirib ki, həmin dövrdə cəmiyyətdə sosial, mədəni kimliklə bağlı bir axtarış vardı. Onun sözlərinə görə, Ulu öndər Heydər Əliyev cəmiyyətə onun birliyini təmin edəcək ideyanı təqdim etdi. Bu impluslar o qədər dəqiq ünvana yönləndirilirdi ki, Azərbaycan cəmiyyəti bunun ətrafında birləşməyə başladı. Nəticə etibarı ilə bir müddətdən sonra Ulu öndərimiz tərəfindən azərbaycançılıq ideologiyası cəmiyyətə təqdim olundu. "Bu, Azərbaycandakı bir sıra ayırıcı, dağıdıcı, separatçılığa xidmət edə biləcək meyillərin qarşısını almağa xidmət göstərdi. Bu mərhələdə artıq cəmiyyətin vahid maraqlar ətrafında bir olduğunun şahidinə çevrildik. Artıq Azərbaycan vətəndaşı özünü öz milli dövləti ilə identifikasiya edirdi. Bu isə milli dövlətçiliyimizin möhkəmlənməsinə şərait yaratdı. Azərbaycanda siyasi iradə bu gün birləşməyə, milli maraqlar ətrafında cəm olmağa köklənib. Bu gün Prezident İlham Əliyevin apardığı siyasi kurs milli maraqlarımızın qorunmasına xidmət göstərir. Bunun nəticəsidir ki, bu gün ölkəmizdə milli dövlətçilik ənənəsi inkişaf edir. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu bu siyasi kurs uğurla davam və inkişaf etdirilir. Azərbaycanın güclü inkişafı məhz 15 iyun 1993-cü ildən sonra başlayır. O gündən etibarən Azərbaycanın idarəçiliyi əmin, etibarlı əllərdədir. Ölkəmizin özünəməxsus unikal, miilli maraqlara xidmət edən xarici siyasəti formalaşıb, iqtisadi inkişafımız davamlı hal alıb"- deyə, H.Babaoğlu vurğulayıb.

# Yeni Azərbaycan Partiyası xalq dəstəyinə malik qüdrətli siyasi təşkilatdır

*YAP Goranboy rayon təşkilatının IX konfransı keçirilib*

## Yeni Azərbaycan Partiyası xalq dəstəyinə malik qüdrətli siyasi təşkilatdır

*YAP Goranboy rayon təşkilatının IX konfransı keçirilib*

***Dünən Yeni Azərbaycan Partiyası Goranboy rayon təşkilatının IX konfransı keçirilib. Konfransı giriş sözü ilə açan YAP Goranboy rayon təşkilatının sədri Elçin İsmayılov hesabat məruzəsi ilə çıxış edərək, qeyd edib ki, rayon təşkilatı 87 ərazi ilk partiya təşkilatında 7200 nəfəri öz ətrafında birləşdirir: "Üzvlərin 3847 nəfərini qadınlar, 2085 nəfərini isə gənclər təşkil edir. Rayonun seçki məntəqələrində yerləşən ərazilərdə ilk partiya təşkilatları fəaliyyət göstərir. Üzvlərin 639 nəfəri mədəniyyət, 518 nəfəri səhiyyə sahəsində, 266 nəfəri idarəetmədə, 2693 nəfəri təhsildə, 2601 nəfəri digər sahələrdə çalışırlar".***

Konfransda YAP Goranboy rayon təşkilatının nəzarət-təftiş qrupunun sədr müavini Maksim Bayramovun hesabat məruzəsi dinlənilib. Çıxış edən rayon təşkilatının şura üzvü Rüstəm Budaqov, mədəniyyət və turizm şöbəsi ərazi ilk partiya təşkilatının sədri Gündüz Hacıyev, YAP Goranboy rayon təşkilatı qadınlar şurasının sədr müavini Yeganə Məmmədova partiyanın yaranması və fəaliyyəti barədə danışıblar, təşkilatın hesabat dövründəki fəaliyyətini qənaətbəxş qiymətləndiriblər.




YAP Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə çıxışında Yeni Azərbaycan Partiyasının yarandığı dövrə nəzər salıb. Bildirib ki, Yeni Azərbaycan Partiyası tarixi zərurətdən yaranan partiyadır: "1992-ci il noyabrın 21-də Azərbaycanın əksər bölgələrindən cəmiyyətin bütün təbəqələrini təmsil edən 550 nümayəndənin iştirakı ilə keçirilən təsis konfransında Ulu Öndər Heydər Əliyev YAP-ın Sədri seçildi. Bununla da, ölkəmizin ictimai-siyasi həyatına Yeni Azərbaycan Partiyası adı altında qüdrətli bir təşkilat daxil oldu. Qısa zamanda partiyanın şəhər və rayon təşkilatları təsis olundu. Ulu Öndər Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyası bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla inkişaf edir, sıralarını kəmiyyət və keyfiyyət baxımından daha da möhkəmləndirir. Ulu Öndər Heydər Əliyev bildirirdi ki, Yeni Azərbaycan Partiyasına xidmət etmək dövlətə, xalqa xidmət etmək deməkdir. Bu fikrin davamı olaraq isə Prezident İlham Əliyev bildirir ki, Yeni Azərbaycan Partiyasının üzvü olmaq böyük məsuliyyətdir. Bu gün partiyanın 700 minə yaxın üzvü ölkənin inkişafına, tərəqqisinə öz töhfələrini verirlər. Onlar ölkənin ictimai-siyasi həyatında fəal iştirakları ilə həyata keçirilən siyasətə dəstək olduqlarını nümayiş etdirirlər."



Konfransda çıxış edən "Səs" qəzetinin baş redaktoru Bəhruz Quliyev Yeni Azərbaycan Partiyasının yaranma zərurətindən, keçdiyi inkişaf yolundan danışıb. Bildirib ki, partiya zamanın tələbi, xalqın istəyi ilə yaranan partiyadır: "YAP-ın qısa müddətdə ümumxalq partiyasına çevrilməsi uğurlu siyasətə əsaslanır. Yarandığı gündən dövlətə və xalqa xidməti fəaliyyətinin əsasında saxlayan YAP bu gün nəinki ölkənin, ümumiyyətlə, regionun aparıcı siyasi təşkilatıdır. 1992-ci il noyabrın 21-də təsis konfransını 550-dən artıq nümayəndənin iştirakı ilə keçirən Yeni Azərbaycan Partiyasının sıralarında bu gün 700 minə yaxın üzvün birləşməsi Heydər Əliyev ideyalarına sədaqətin, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin gələcəyinə inamın göstəricisidir."

B.Quliyev Ulu Öndər Heydər Əliyev siyasətinin uğurlu davamçısı Prezident İlham Əliyevin rəhbərliyi altında ölkəmizin, eyni zamanda Yeni Azərbaycan Partiyasının əldə etdiyi uğurlardan bəhs edib. Qeyd edib ki, bu gün Azərbaycan böyük quruculuq meydançasını xatırladır. Goranboy rayonunun timsalında bu inkişafı və tərəqqini aydın şəkildə görmək olur.

Goranboy rayon icra hakimiyyətinin başçısı Nizaməddin Quliyev isə çıxışında qeyd edib ki, Yeni Azərbaycan Partiyasının yaradılması Azərbaycanın tarixində önəmli bir hadisədir: "Ötən dövrdə Azərbaycan düzgün qurulan siyasətin sayəsində inkişaf və tərəqqi yolunda inamla irəliləyərək, bu gün beynəlxalq tədbirlərin keçirilməsi üçün əsas məkana, eyni zamanda, iqtisadi möcüzələr ölkəsinə çevrilib. Bu uğurların fonunda Azərbaycanın müstəqilliyinin ilk illərində yaşadığı ağır durum aydın şəkildə görünür. O illərdə ölkəyə

## DSX konsert proqramı təşkil edib



Böyük Britaniya Müdafiə Nazirliyini təmsil edən "The Salamanca Band and Bugles of The Rifles" hərbi orkestri Bakıya səfərə gəlib. Səfər çərçivəsində Böyük Britaniyanın Azərbaycandakı səfirliyinin təşkilatçılığı ilə iyun ayının 13-də "The Salamanca Band and Bugles of The Rifles" hərbi orkestrinin Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin Nümunəvi Hərbi Orkestri ilə birgə Fəvvarələr Meydanında konsert proqramı təşkil olunub. SİA-nın verdiyi məlumata görə, konsertdə Azərbaycan bəstəkarlarının klassik əsərləri, xarici estrada və caz musiqiləri səsləndirilmişdir. Konsert proqramı, xüsusilə "The Salamanca Band and Bugles of The Rifles" orkestrinin ifasında "Sarı gəlin" mahnısı şəhər sakinləri və xarici qonaqlar tərəfindən böyük maraqla qarşılanıb.



## Naxçıvanda keçirilən birgə taktiki təlimə 250-dən artıq döyüş və müxtəlif təyinatlı texnikalar cəlb olunub

Azərbaycan və Türkiyə Silahlı Qüvvələrinin iyunun 12-də Naxçıvanda başlayan birgə taktiki təlimləri davam edir. AZƏRTAC xəbər verir ki, Əlahiddə Ümumqoşun Ordunun, müxtəlif güc strukturlarının və Türkiyə Respublikası Silahlı Qüvvələrinin bölmələri təlimin ssenarisinə əsasən "Həyəcan" siqnalı ilə qaldırılaraq təlim rayonuna çıxarılıb. Birləşmə və hissələr döyüşə hazırolma planlarına uyğun olaraq fəaliyyət göstərib, bölmələrin tam döyüşə hazırolma vəziyyətinə gətirilməsi üçün müvafiq tədbirlər görülüb. Beş min nəfərədək şəxsi heyətin, 250-dən artıq döyüş və müxtəlif təyinatlı texnikaların cəlb olunduğu təlim iyunun 16-dək davam edəcək.



## Sığorta agentlərinin fəaliyyəti 3 ay müddətinə dayandırılıb

Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) Direktorlar Şurasının 9 iyun tarixli qərarına əsasən bəzi sığorta agentlərinin fəaliyyətinə verilmiş lisenziyalarının qüvvəsi 3 ay müddətinə dayandırılıb. Palatadan SİA-ya verilən məlumata görə, Direktorlar Şurasının iclasında Sığorta Bazarına Nəzarət Departamentinin 46 nəfər fiziki şəxsin sığorta agenti fəaliyyətinə verilmiş lisenziyanın 3 ay müddətinə dayandırılması müraciətinə baxılaraq, müsbət qərar qəbul edilib. Lisenziyaların dayandırılmasına səbəb, sığorta agentlərinin "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikasının Qanununun 93.2-3-cü maddəsinin tələblərinə riayət etməyərək MBNP-yə rüblük hesabatları təqdim etməmələri olub.

səs
www.sesqazeti.az
facebook Ses Media Holding
14 iyun 2017-ci il

# Azərbaycanın davamlı inkişaf yolunun təməli 15 İyun Qurtuluş Günü ilə qoyulub

***Azərbaycanın 25 illik müstəqillik tarixində ölkəmizin, xalqımızın bu günü və gələcəyi üçün müstəsna əhəmiyyət daşıyan bir neçə əlamətdar günü xüsusi qeyd etmək lazımdır. Bunlardan biri və bəlkə də, birincisi, 15 İyun Qurtuluş Günüdür. İllər ötdükcə, respublikamız inkişaf edib müstəqilliyini möhkəmləndirdikcə Qurtuluş Gününün tarixi önəmi daha aydın dərk olunur. Bu gün ölkəmizin hər bir vətəndaşı, bütün cəmiyyət 1993-cü ilin 15 iyununu- bir neçə onillik ərzində uzaqgörənliyi, iti zəkası, ölçüyəgəlməz milli təəssübkeşliyi və fədakar fəaliyyəti sayəsində Azərbaycanın inkişafı üçün bütün sahələrdə fundamental əsaslar yaradan Ulu Öndər Heydər Əliyevin respublikamızda xalqın təkidli tələbi ilə siyasi hakimiyyətə qayıdışının rəsmiləşdiyi tarixi sonsuz minnətdarlıq hissi ilə xatırlamağı özünə mənəvi borc hesab edir. Çünki təkzibolunmaz həqiqət ortadadır. Hər birimizə aydındır ki, 15 İyun Qurtuluş Günü olmasaydı, müstəqilliyimiz, həyatımızın bugünkü firavanlığı da olmayacaqdı. Ulu Öndər böyük qayıdışı ilə Azərbaycanın XX yüzillikdə ikinci dəfə qazandığı müstəqilliyinin itirilməsinin qarşısını aldı, ölkəmizi sabitliyə, davamlı inkişafa və sosial rifaha istiqamətləndirdi.***



## Azərbaycanın qurtuluş tarixi Naxçıvandan başlayıb

Tarixən Azərbaycanın dövlətçilik ənənələrinin zənginləşməsində mühüm rol oynayan Naxçıvan ötən əsrin doxsanıncı illərinin əvvəllərində respublikamızın müstəqilliyə qovuşmasına da öz dəyərli töhfəsini vermişdir. Tam cəsarətlə demək mümkündür ki, bəhs olunan dövrdə Azərbaycanın müstəqilliyə gedən yolunun, qurtuluş tarixiniun əsası Ümummilli Lider Heydər Əliyevin səyləri və cəsarəti sayəsində, məhz qədim diyarda-Naxçıvanda qoyulub.

Məlumdur ki, keçmiş İttifaq rəhbərliyinin getdikcə artan təzyiqləri ilə üzləşən Ulu Öndər Heydər Əliyev 1990-cı ildə Moskvadan Bakıya qayıtmaq məcburiyyətində qaldı. Lakin imperiya nökərləri-bəhs olunan dövrdə Azərbaycanın rəhbərliyində təmsil olunan şəxslər Heydər Əliyevin Bakıya qayıdışını kresloları üçün təhlükə hesab edərək, Onun paytaxtda qalmasını əngəllədilər. Ulu Öndər doğulduğu Naxçıvana üz tutdu və burada insanlar Onu böyük sayğı ilə qarşıladılar. Həmin ilin payızında Heydər Əliyev Babək rayonunun Nehrəm kəndindən Azərbaycan Respublikasının Ali Sovetinə deputat seçildi. Ulu Öndər, eyni zamanda, Naxçıvan Ali Sovetinə də deputat seçilmişdi. Muxtar respublikanın Ali Sovetinin seçilərdən bir qədər sonra-17 noyabr 1990-cı il tarixində çağrılan sessiyasına sədrlik Heydər Əliyevə həvalə olundu. Həmin sessiyada Heydər Əliyevin cəsarəti, milli təəssübkeşliyi, xalqına bağlılığı bütün cəhətləri ilə bir daha özünü büruzə verdi. Sessiyada Ulu Öndərin təşəbbüsü ilə Naxçıvan Ali Sovetinin adı dəyişdirilərək, onun Naxçıvan Respublikasının Ali Məclisi adlandırılması haqqında qərar çıxarıldı, Azərbaycan Xalq Cümhuriyyətinin o vaxtlar çoxlarının tanımadığı üçrəngli bayrağı Naxçıvan Ali Məclisində qaldırıldı.

Bu gün Heydər Əliyevin o dövrdə atdığı bu kimi cəsarətli addımları kimlərə isə adi görünə bilər. Lakin bu, belə deyil. Bəhs olunan dövr çox ziddiyyətli idi, hadisələrin necə inkişaf edəcəyini proqnozlaşdırmaq çətin idi, hələ Sovet İttifaqı Kommunist Partiyası fəaliyyət göstərirdi. Heydər Əliyev isə təhdidlərdən, Özü və ailəsi üçün yarana biləcək təhlükələrdən çəkinməyərək, respublikamızın gələcək taleyi baxımından müstəsna əhəmiyyət daşıyan qərarların qəbul olunmasına nail oldu. Bir qədər sonra-1991-ci il fevralın 5-də Azərbaycan Respublikasının Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatətinə baxaraq, üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar verdi.

1991-ci il sentyabrın 3-də Naxçıvan Ali Məclisinin Sədri seçilən Heydər Əliyev Özünün şəxsi nüfuzundan və yüksək diplomatik bacarığından istifadə edərək qonşu Türkiyənin, İranın siyasi rəhbərliyi ilə təmasları gücləndirdi və blokada şəraitində yaşayan muxtar respublikanı erməni təcavüzündən, aclıqdan və səfalətdən qorudu. Eyni zamanda, Ulu Öndər xalqda müstəqillik uğrunda mübarizə əzmini möhkəmləndirməyə çalışırdı. Onun çağırışı ilə Naxçıvanın 1991-ci il martın 17-də keçmiş Sovet İttifaqının saxlanması ilə bağlı keçirilən referenduma qatılmaması Azərbaycan xalqının müstəqillik ideyalarına inamını artırdı və insanlarda qarşısıalınmaz mübarizə əzmi yaratdı. Halbuki respublikanın o vaxtkı rəhbərliyinin təhriki ilə həmin saxta referenduma Azərbaycan da qoşulmuşdu. Zaman Heydər Əliyevin uzaqgörənliyini bir daha təsdiqlədi. Saxta referendumdan cəmi bir neçə ay sonra-avqustun 19-da keçmiş SSRİ-də "QKÇP" adını alan dövlət çevrilişinə cəhd oldu. Bundan sonra hadisələr dönməz xarakter aldı, keçmiş İttifaq, onunla bərabər də Kommunist Partiyası dağıldı.

Ulu Öndərin bu kimi cəsarətli addımları bütün Azərbaycan üçün müstəqilliyə bir çağırış idi. Heydər Əliyev respublikanın o vaxtkı rəhbərliyinin "bəlkə də qaytardılar" mövqeyində qalmasına baxmayaraq, çəkinmədən müxtəlif tribunalardan yolumuzun müstəqillik yolu olduğunu bildirdi.

## Heydər Əliyev bütün Azərbaycan miqyasında xilaskarlıq missiyasını yerinə yetirdi

Ümummilli Lider Heydər Əliyevin ötən əsrin 90-cı illərinin əvvəllərində fəaliyyəti yalnız Naxçıvanı qorumaqla məhdudlaşmadı. O, eyni zamanda, bütün Azərbaycan miqyasında xilaskarlıq missiyasını yerinə yetirdi.

Dövlət müstəqilliyinə nail olmaq hər bir xalqın müqayisəyəgəlməz tarixi nailiyyətidir. Azərbaycan da keçmiş İttifaq məkanında gedən məlum proseslər nəticəsində 1991-ci ildə XX əsrdə ikinci dəfə müstəqillik qazanmağa müvəffəq oldu. Ancaq müstəqilliyimizin ilk illərində xalqımız bir sıra məhrumiyyətlərə qatlaşmaq məcburiyyətində qaldı. 1992-ci il may ayının 14-də hakimiyyəti zorla ələ

# Azərbaycanın davamlı inkişaf yolunun təməli 15 İyun Qurtuluş Günü ilə qoyulub

keçirən AXC-Müsavat iqtidarının səriştəsizliyi ucbatından müstəqilliyimiz və bütövlükdə, ölkənin taleyi üçün çox ciddi təhdidlər yaranmışdı. Problemlər getdikcə artırdı. Hakimiyyət strukturlarına, o cümlədən, silahlı birləşmələrə nəzarəti itirən o zamankı Azərbaycan iqtidarı 1993-cü ilin yayında ölkəni vətəndaş müharibəsi təhlükəsi ilə üz-üzə qoydu. Ölkənin bir sıra regionlarında silahlı birliklər separatçı iddialarla çıxış edib və mərkəzi hakimiyyətə tabe olmadıqlarını bildirirdilər. 1993-cü il iyunun 4-də Gəncədə sabiq korpus komandiri və AXC-Müsavat hakimiyyətinin Qarabağ üzrə xüsusi nümayəndəsi Surət Hüseynovun rəhbərlik etdiyi 709-cu briqadanın ləğvi ilə bağlı qərar imzalanması isə Gəncədə böyük miqyaslı qarşıdurmaya rəvac verdi. Ölkədə ilk qardaş qanının axıdılması vətəndaş müharibəsinin, necə deyərlər, evin astanasında olmasından xəbər verirdi.

Belə ağır məqamda insanların ümid dolu gözləri Naxçıvana, hətta düşmən blokadasında belə muxtar respublikanı qorumağı bacaran Ümummilli Lider Heydər Əliyevə dikilmişdi. AXC-Müsavat iqtidarının yarıtmaz rəhbərliyindən cana doyan xalq Vətənin bu ağır günündə öz sınanmış dahi oğlu Heydər Əliyevin Bakıya-Azərbaycanın siyasi rəhbərliyinə gəlməsini qətiyyətlə təkid edirdi. Yaranmış vəziyyətdə hakimiyyətə gəlməyin çox böyük riskləri olmasına baxmayaraq, həmişə Azərbaycanın taleyini Öz taleyi sanan Heydər Əliyev Ona ünvanlanan çoxsaylı müraciətləri və xalqın çağırışını cavabsız qoymadı və iyunun 9-da Bakıya gəldi. Ulu Öndər 13 iyunda parlamentdə çıxış etdi, Gəncəyə gedib oradakı vəziyyətlə tanış oldu. 15 iyunda isə Ulu Öndər Heydər Əliyev Azərbaycan Ali Sovetinin Sədri seçildi. Beləliklə, respublikamız diletant, naşı və həris insanların hakimiyyətindən qurtuldu. Azərbaycanın sabitlik və inkişafla səciyyələnən qurtuluş tarixi başladı. Sınanmış oğlu Heydər Əliyevin timsalında özünün layiqli rəhbərini tapan xalq Onu ilk dəfə 1993-cü il oktyabrın 3-də, ikinci dəfə isə 1998-ci il oktyabrın 11-də Azərbaycan Respublikasının Prezidenti seçdi.

### Xaosa son qoyuldu, ölkə inkişafa istiqamətləndi

Çiyinlərində uzun illərin dövlət idarəçiliyi təcrübəsi olan Ulu Öndər özünəxas müdrikliklə, verdiyi əsaslandırılmış qərarlarla ölkənin parçalanması təhlükəsinin, regional separatçılığın qarşısını qətiyyətlə almağa müvəffəq oldu. Ölkədə qanunsuz silahlı qruplaşmaların dövlət çevrilişləri cəhdlərinə son qoyuldu, orduda vahid komandanlıq bərqərar edildi, cəmiyyətdə konsensus yardıldı. Onun siyasi iradəsi ilə respublikada ilk parlament seçkiləri keçirildi. Ulu Öndərin rəhbərliyi altında hazırlanaraq, 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul olunan konstitusiyamız Azərbaycanda hüquqi dövlət quruculuğu üçün bu gün də fundamental baza rolunu oynayır.

Ulu Öndər Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərlik etdiyi 1993-2003-cü illərdəki fəaliyyəti, heç şübhəsiz ki, dövlət quruculuğunun bütün istiqamətlərini əhatə edirdi. Ölkənin qarşısında dayanan çoxsaylı prioritetlər sırasında əsas məsələlərdən biri də milli iqtisadiyyatın gücləndirilməsi idi. Ulu Öndər, xüsusi olaraq vurğulayırdı ki, iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir. Heydər Əliyevə AXC-Müsavat iqtidarından dağıdılmış, təchizat-satış əlaqələri pozulmuş iqtisadiyyat miras qalmışdı. Belə vəziyyətdə Heydər Əliyev iqtisadiyyatın dirçəlməsinə yönələn müdrik qərarlar qəbul etdi, o cümlədən, 100-dən çox Fərman və Sərəncam imzaladı. Ulu Öndər in təşəbbüsü əsasında parlamentdə yeni qanunlar qəbul edildi. Nəticədə, 1995-ci ildən milli iqtisadiyyatımızda bərpa, 1996-cı ildən isə artım dövrü başladı.

Ən vacib məqamlardan biri o oldu ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanın gələcəyinə hesablanan yeni neft strategiyasını işləyib-hazırladı və Xəzərin zəngin karbohidrogen ehtiyatlarının işlənməsinə xarici sərmayələri cəlb etməyə nail oldu. Azərbaycan hökuməti ilə xarici şirkətlərin nümayəndələri arasında təxminən bir il gedən danışıqlardan sonra 1994-cü il sentyabrın 20-də Bakıda 11 beynəlxalq neft şirkəti ilə sonralar "Əsrin müqaviləsi" adını alan müqavilə imzalandı. Sonrakı illərdə neft gəlirlərinin artması hesabına ölkənin iqtisadi inkişafı üçün böyük imkanlar yarandı.

O dövrdə Azərbaycan müstəqilliyini bərpa etsə də, ölkə iqtisadiyyatında keçmiş sovet dövrünə xas olan yanaşmalar tətbiq edilirdi ki, bu da yeni dövrün tələbləri ilə bir araya sığmırdı. Uzaqgörən siyasətçi Heydər Əliyev yaxşı başa düşürdü ki, Azərbaycanın gələcək inkişafı geniş məzmunlu iqtisadi islahatlardan keçir. Beləliklə, Ulu Öndərin siyasi iradəsi sayəsində respublikamızda liberal iqtisadiyyata transformasiya prosesinə başlanıldı. Ölkədə yeni iqtisadi modelin bərqərar olması baxımından sahibkarlıq fəaliyyətinə, özəl bölməyə dəstək tədbirləri böyük əhəmiyyət daşıyırdı. Ulu Öndər in siyasi iradəsi sayəsində keçmiş İttifaq məkanında ilk dəfə Azərbaycanda geniş torpaq islahatı həyat keçirildi. Dövlət başçısının imzaladığı mühüm sənədlər, Onun shibkarlarla görüşləri, verdiyi dəyərli tövsiyələr milli iqtisadiyyatın qarşısında geniş inkişaf perspektivləri açdı.

### Ulu Öndərin təməlini qoyduğu yolun inamla davam etdirilməsi Azərbaycanın bugünkü müsbət reallıqlarını yaradıb

Azərbaycanın xoşbəxtliyi ondadır ki, respublikamızda Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu sabitlik və davamlı inkişaf kursunun ardıcıllığı bu gün Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə təmin edilir. Bunun da sayəsində respublikamız bütün sahələrdə uğurlara nail olub. Bu gün ölkəmizin hər bir vətəndaşı güclü Azərbaycanla qürur duyur. Son illərdə dünyada ən yaxşı iqtisadi inkişaf göstəricilərindən biri, məhz Azərbaycanda qeydə alınıb. Qlobal reytinq agentlikləri, o cümlədən, Davos İqtisadi Forumu, Dünya Bankı milli iqtisadiyyatımızın durumu və perspektivləri ilə bağlı müsbət rəylər ifadə ediblər. Respublikamızın iqtisadi və maliyyə potensialının genişlənməsi ilə paralel şəkildə, beynəlxalq nüfuzu da əhəmiyyətli dərəcədə artıb. Qısa müstəqillik tarixində Azərbaycan dünyanın 155 ölkəsinin dəstəyini qazanaraq, 2012-2013-cü illərdə BMT TŞ-nın qeyri-daimi üzvü seçilib. Hazırda respublikamız Cənubi Qafqazın lider dövləti statusunu inamla daşıyır. Bu gün Azərbaycan yeni neft strategiyasının uğurla reallaşdırılması sayəsində bölgənin enerji xəritəsini tamamilə dəyişməyə nail olub, həmçinin, Avropanın enerji təhlükəsizliyində böyük çəkiyə malik bir ölkəyə çevrilib.

Ölkəmizin müasir mənzərəsini göz önündə canlandıran uğurların sayı kifayət qədər çoxdur. Azərbaycanı sabitlik və rifah adasına çevirən, ölkəmizə bütün dünyada böyük hörmət qazandıran siyasətin təməli isə 4 iyun 1993-cü il hadisələrindən sonra Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın siyasi hakimiyyətinə qayıdışı ilə qoyulub. Azərbaycan tarixində faciəvi 4 iyun günündən sonra 15 İyun Qurtuluş Günü yazıldı. Heydər Əliyevin hakimiyyətə gəlişi ilə ölkəmizdə qurtuluş tarixinin başlaması Azərbaycana nə verib? Bu sualın cavabında hansısa nəzəriyyələrdən bəhs etməyə heç bir lüzum yoxdur. Azərbaycanın yuxarıda qısa ekskurs etdiyimiz bugünkü inkişaf mənzərəsinin göz önündə canlandırılması sualın ən yaxşı və dolğun cavabıdır.

**_Xatirə Əliyeva,_**
**_YAP-ın Mətbuat Xidmətinin əməkdaşı_**

## Ərdoğan və Donald Tramp Qətərdəki vəziyyəti müzakirə edəcəklər



Türkiyə və ABŞ prezidentləri Rəcəb Tayyib Ərdoğan və Donald Tramp Qətər ətrafında yaranmış vəziyyəti müzakirə edəcəklər. AZƏRTAC Türkiyə KİV-lərinə istinadla xəbər verir ki, bunu çərşənbə axşamı günü Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu bildirib. Nazirin sözlərinə görə, Ərdoğan yaxın günlərdə Trampla telefon danışığı aparacaq. Söhbət zamanı Qətərdəki vəziyyət müzakirə olunacaq.

## "The Jewish Press": Azərbaycan ruhlandırıcı nümunə göstərir




"The Jewish Press" Amerika-yəhudi nəşrində amerikalı ravvin İzrail Barukun "Azərbaycan ruhlandırıcı nümunə göstərir" sərlövhəli məqaləsi dərc edilib. Materialda Azərbaycanda tolerantlıq və multikulturalizm ənənələrindən bəhs edilir. Ravvin Baruk Amerikadakı yəhudi qəbiristanlarında törədilmiş vandalizm, son aylarda orada məzarüstü daşların aşırılması və məzarların murdarlanması faktlarına görə heyrətləndiyini bildirərək oxucuların diqqətini Azərbaycana cəlb edir. Müəllif vurğulayır ki, bu ölkədə yəhudi icması heç vaxt qeyri-tolerantlıq və antisemitizm halları ilə qarşılaşmır. Baruk yazır ki, o, Bakıda səfərdə olarkən başında kipa olduğu halda şəhərin küçələrində rahatca gəzirdi. Müəllif vurğulayır ki, yəhudi dininin bu aşkar rəmzinə baxmayaraq ətrafdakı adamların ona neqativ baxışlarını hiss etməyib. Bütün bunlar ona dəlalət edir ki, Azərbaycan mədəniyyəti ölkə hüdudlarında bütün dini azlıqları dəstəkləyir. Ravvin Azərbaycan yəhudi icmasından söhbət açaraq qeyd edir ki, bu ölkədə yaşayan 30.000 yəhudi arasında dağ yəhudiləri daha qədim tarixə malikdir.

Ravvin Azərbaycan nümunəsini müzakirə edərək vurğulayır ki, Birləşmiş Ştatlar azadlıq, imkanlar və dözümlülük diyarıdır. Ona görə, Azərbaycan kimi ABŞ da dünyaya göstərməlidir ki, sülh və həmrəylik, tolerantlıq şəraitində yaşamaq olar. Müəllif vurğulayır ki, dözümsüzlüyün get-gedə artmaqda olan təhdidə çevrildiyi müasir dünyada bir şəraitdə Azərbaycandan öyrənilməsi məsələlər var. Ravvin məqalənin sonunda qeyd edir ki, dünya ölkələri bu kiçik tolerant ölkəyə diqqət yetirməlidirlər, artıq bunun vaxtı çatıb.

# Seymur Orucov: "Yay məktəbi bu il tam fərqli olacaq"

*Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, Partiyanın Gənclər Birliyinin sədri Seymur Orucovun SİA-ya müsahibəsi:*

***- Seymur müəllim, bildiyiniz kimi ölkəmizdə hər il 15 İyun Milli Qurtuluş Günü kimi qeyd olunur. Ümumiyyətlə bu tarixi hadisəyə zəmin yaradan əsaslar nədən ibarət idi?***



- Həqiqətən də, Azərbaycanın müasir, çağdaş tarixində Qurtuluş Gününün önəmi çox vacibdir. Çünki Qurtuluş Günü Azərbaycana heç də asan başa gəlməyib. Bildiyiniz kimi bu gün Azərbaycan 25 illik bir müstəqillik dövrünü yaşayır. Əgər biz o dövrdə nəzər salsaq, görərik ki, ölkəmizin ən acınacaqlı dövrü məhz Qurtuluş Gününə qədərki zaman olub. Çünki Azərbaycan həmin vaxtlar yenicə müstəqil olmuşdu. SSRİ dağıldıqdan sonra Azərbaycanda bütün iqtisadi əlaqələr kəsilmişdi. Ölkəmiz yeni bir iqtisadi formasiyadan digər iqtisadi formasiyaya transformasiya etməli idi. Azərbaycan öz iqtisadiyyatını, sosial vəziyyətini, ictimai baxışlarını dəyişməli idi. Onsuz da bu proses ağır və zaman tələb edən bir proses idi. Bildiyiniz kimi o vaxtlar Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ problemi artıq müharibəyə çevrilmişdi. Beləcə, müstəqilliyin atributları, göstəriciləri və s. heç biri işlək vəziyyətdə deyildi. Bu cür idarə olunan cəmiyyətdə isə ortaya anarxiya, özbaşınalıq və yaxud hansısa qanunsuz qruplaşmaların hakimiyyətə gəlməsi çıxır. Bütün bu hadisələrin fonunda xalq Ümummilli Lider Heydər Əliyevə müraciət etdi. O zamanlar məhz Ulu Öndərə 91-lərin müraciəti oldu. 4 iyun Gəncədə qiyam baş vermişdi. Bu o deməkdir ki, Azərbaycan artıq vətəndaş müharibəsinin astanasında idi. 9 iyunda Heydər Əliyev Bakıya qayıtdı və 15 iyunda Ali Sovetin sədri seçildi. Bununla da Azərbaycan dövlətçiliyini sənəd üzərində deyil, real dövlət kimi formalaşdırmağa başladı.

***- Bu yaxınlarda Prezident İlham Əliyev tərəfindən struktur dəyişiklikləri, dövlət idarəçiliyində islahatlar həyata keçirildi. Bu dəyişikliklərin üstün cəhətləri haqqında nələri söyləmək olar?***

- Biz gənclər tərəfindən bu dəyişikliklər çox müsbət qarşılandı. Qeyd etdiyim kimi Azərbaycan 25 ildir ki, müstəqil dövlətdir. Biz dövlətimizi qurmuşuq və formalaşdırmışıq. Bu gün hər kəsə məlumdur ki, Prezident Administrasiyasında böyük struktur islahatları getdi və yeni komanda formalaşdı. I Vitse-Prezidentlik İnstitutu formalaşandan sonra həmin amillər bunu zəruri edən məsələlərdən biri idi. Bu dəyişiklik nəticəsində Prezident Administrasiyasında yeni - Gənclər siyasəti və idman məsələləri şöbəsi yaradılıb. Bu vəzifəyə Yusif Məmmədəliyev təyin edildi. Biz analiz, müşahidə etdikdə görürük ki, bu proses davam edir. Prezidentin imzalamış olduğu sərəncamlar, struktur dəyişiklikləri birbaşa Azərbaycanın dövlətçiliyinin, dövlət quruculuğunun möhkəmlənməsinə, onun hüquqi bazasının daha da möhkəm olmasından xəbər verir. Biz Prezident İlham Əliyevin fəaliyyətini hər zaman dəstəkləmişik və bundan sonra da bu davam edəcək. Nəticə etibarilə qazanan bizim cəmiyyətimiz olmuşdu.

***- Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin gələcək fəaliyyəti haqqında nə deyərdiniz?***

- Təbii ki, bizim həyata keçirdiyimiz layihələrin bir çoxu sosial layihələrdir. Onları iş planımıza uyğun olaraq həyata keçiririk. Bizim Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatı ilə Eko-Parkda tədbirimiz olacaq. "Ekologiyanı qoruyaq" devizi altında tədbirimiz baş tutacaq. 15 İyun Milli Qurtuluş Günü ilə bağlı silsilə tədbirləri həyata keçirmişik. Azərbaycanın tanınmış ziyalıları ilə gənclərin görüşünü təşkil edirik. Məsələn, ölkəmizdə keçirilən İslam Həmrəyliyi Oyunları ilə bağlı bir sıra layihələr həyata keçirdik. Eləcə də Azərbaycan Velosiped İdman Federasiyası ilə birgə "İslam Oyunlarına dəstək" devizi altında Bakı-Sumqayıt-Abşeron komandaları arasında velosiped turniri təşkil etmişdik. Biz Formula-1-ə dəstəklə bağlı bu yaxınlarda Kartinq yarışı həyata keçirəcəyik. Buda ki bizim gənclərimizi həm Formula-1-ə həvəsləndirmək, həm də onların asudə vaxtlarının səmərəli təşkilinə xidmət edir. Bizim digər layihəmiz gənclərin Yay məktəblərini təşkil etməkdir. Halhazırda bu istiqamətdə işlər gedir.

***- Ümumiyyətlə bu il gözlənilirmi gənclərin Yay məktəbinin təşkil olunması?***

- Biz sadəcə olaraq gənclərin Yay məktəbinin formatında bir qədər dəyişiklik etməyi nəzərdə tutmuşuq. Bilirsiniz ki, Azərbaycan aprel döyüşlərində böyük bir ruh qazanmışdı. O ruhu yaşatmaq üçün belə bir təklif gəldi ki, Yay məktəbini daha çox səhra şəraitində, hərbi rejimdə həyata keçirək. Məsələn, gənclərimiz 1 həftə çadırlarda yaşasınlar və əsgər yeməkxanalarından istifadə etsinlər. Eyni zamanda orada hərbi biliklərlə bağlı idman tədbirləri də nəzərdə tutulur. Bu məsələlər bu ilin iyul ayının ikinci ongünlüyündən sonra reallaşarsa biz onu təşkil edəcəyik.

***- Son olaraq həm müxalifətyönlü gənclərin, həm də erməni təxribatçılarının əməllərinə qarşı iqtidaryönümlü gənclər hansı işlər görürlər?***

- İlk növbədə bu kimi işlərdə birinci maarifləndirmə getməlidir. Bəzi saytlar, xəbər portalları var ki, onlar cəmiyyəti bilərəkdən səhv məlumatlandırmağa çalışırlar. Onlar istəyirlər ki, informasiyanı başqa cür çatdırsınlar. Bu cür texnologiyadan dünyada istifadə olunur. Bəzən bu texnologiyadan istifadə edərək bəzi dövlətlərdə çevrilişlər, iğtişaşlar, daxili müharibələr, vətəndaş müharibələri kimi hadisələri törədiblər. Təbii ki, bizim gənclərimiz bunların qarşısını almaq üçün sosial şəbəkələrdə haqsız məqalələr, yazılar çıxanda, şər-böhtan atılan zaman buna öz etirazlarını bildirirlər. Nəticə etibarilə əsas məqsəd ondan ibarətdir ki, bizim dövlətimiz möhkəm olsun. Biz tənqidə, dialoqa hər zaman açığıq. Amma bunun bir həddi və hüdudu var. Gördüyümüz tədbirləri, həyata keçirdiyimiz layihələri orada paylaşırıq. YAP GB tək mərkəzi ofisdən ibarət deyil. Bizim Bakı, Sumqayıt və digər regionlarımızdakı təşkilatlarımız da bu proseslərdə aktiv iştirak edirlər.

# Heydər Əliyev Fondu tərəfindən Pakistanda Ramazan ayı ilə əlaqədar bayram sovqatları təqdim olunub



***Heydər Əliyev Fondu tərəfindən Pakistanın Abbotabad bölgəsinin bir sıra kəndlərində Ramazan ayı ilə əlaqədar bayram sovqatları təqdim olunub. Fonddan AZƏRTAC-a bildiriblər ki, bu aksiya bölgənin dörd yüzdən çox yoxsul ailəsini əhatə edib.***



Pakistanın Milli Assambleya sədrinin müavini Murtuza Cavid Abbasinin, Assambleyanın bir sıra deputatlarının, ziyalıların, ictimai-siyasi xadimlərin iştirakı ilə keçirilən tədbirdə səfir Əli Əlizadə çıxış edərək Azərbaycan və Pakistan xalqlarını bir-birinə yaxınlaşdıran dini etiqad və ortaq dəyərlərin olduğunu, xalqlarımızın bir-birinin sevincini və kədərini birgə bölüşdüyünü diqqətə çatdırıb. Səfir Azərbaycanla Pakistan arasında əlaqələrin bütün sahələrdə olduğu kimi, humanitar-sosial sahədə də inkişaf etdiyini söyləyib, bu əlaqələrin inkişafında Heydər Əliyev Fondunun rolunu qeyd edib, Fond tərəfindən Pakistanda bir sıra humanitar-sosial yönümlü layihələrin həyata keçirildiyini vurğulayıb.



Ə.Əlizadə Heydər Əliyev Fondunun Pakistanda fəaliyyətinin 2005-ci ildə Müzəffərabad şəhərində qızlar məktəbinin tikintisi ilə başlandığını xatırladaraq, ötən on iki il ərzində Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Pakistanın müxtəlif əyalətlərində təhsil, səhiyyə, ekologiya, sosial və digər sahələrdə layihələr həyata keçirdiyini deyib. Səfir bu layihələrin iki ölkənin xalqları arasında əlaqələrin, dostluq və həmrəyliyin möhkəmlənməsinə öz töhfəsini verdiyini qeyd edib. O, Fond tərəfindən Ramazan ayı münasibətilə yardım bağlamalarının və sovqatların təqdim olunmasının da bu amala xidmət etdiyini vurğulayıb.

Ə.Əlizadə Abbotabad bölgəsinin əhalisini Heydər Əliyev Fondunun prezidenti, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın adından Ramazan ayı münasibətilə təbrik edərək, Pakistan Milli Assambleyası sədrinin müavini Murtuza Cavid Abbasiyə və digər iştirakçılara tədbirdə aksiyasında iştirak etdiklərinə görə təşəkkürünü bildirib.

Tədbirdə çıxış edən Pakistan Milli Assambleyası sədrinin müavini Murtuza Cavid Abbasi iki qardaş ölkə olan Pakistan və Azərbaycan arasında əlaqələrin inkişafından məmnunluğunu ifadə edib, bu cür layihələrin xalqlar arasındakı münasibətlərin istiləşməsinə xidmət etdiyini söyləyib. Azərbaycana builki səfərini xatırladan Assambleya sədrinin müavini ölkəmizdə həyata keçirilən islahatlar, iqtisadi layihələr haqqında məlumat verib. O, Azərbaycanın inkişaf və tərəqqi dövrünü yaşadığının şahidi olduğunu, bunun Pakistan üçün də fəxr olduğunu vurğulayıb. Keçirilən humanitar-sosial yönümlü layihələrə görə Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təşəkkürünü çatdıran Pakistanın Milli Assambleyası sədrinin müavini Ramazan sovqatlarının təqdim olunmasının Abbotabad bölgəsinin yerli əhalisinin sevincinə səbəb olmaqla yanaşı, onlara mənəvi dəstək olduğunu da bildirib.

# Yağışlı hava ilə əlaqədar olaraq zolaqlar üzrə sürət həddi endirildi

Yağışlı hava ilə əlaqədar paytaxtın iki əsas avtomagistralı- Heydər Əliyev prospekti Buzovna dairəsinədək və Zığ dairəsi Hava limanı yolunda bütün zolaqlar üzrə sürət həddi 20 km/ saat endirildi. Bakı Nəqliyyat Agentliyindən SİA-ya verilən məlumata görə, məqsəd yollarda hərəkətin təhlükəsizliyini təmin etməkdir. R.Behbudov küçəsi istisna olmaqla hazırda paytaxtın digər küçə və prospektində nəqliyyat vasitələrinin normal hərəkəti müşahidə edilir.

BNA
Bakı Nəqliyyat Agentliyi



# "Son zəng" çalındı

## Bu il respublikanın ümumtəhsil məktəblərinin IX siniflərini -110 638 nəfər, XI siniflərini isə 84 088 nəfər şagird bitirir

***Bu gün Azərbaycanda bütün ümumtəhsil müəssisələrində onbirillik məktəb həyatının "Son zəng"i çalındı. 2016/2017-ci dərs ilinə yekun vuruldu. On bir il parta arxasında oturub müəllimlərini həvəslə dinləyən, elmi biliklərə yiyələnən məktəblilər məzun adını qazandılar. Yaddaşlarda qalacaq bu günün zəngi uşaqlıq və yeniyetməlik dövrünün xatirəsi tək əbədiləşəcəkdir. Artıq bu gündən gənclər müstəqil Azərbaycanın müstəqil vətəndaşları kimi həyata qədəm qoyacaqlar. 2016-2017-ci tədris ilinin sonuna olan proqnoz üzrə respublikanın ümumtəhsil məktəblərinin IX siniflərini -110 638 nəfər, XI siniflərini - 84 088 nəfər, qiyabi (axşam) ümumtəhsil məktəblərini isə 723 nəfər şagird bitirir. 2017-2018-ci tədris ilində isə 164 945 nəfər I sinifə qədəm qoyacaq.***

Ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan təhsilinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər gənclərimizin savadlı, rəqabətəqabil, həm də əsl vətəndaş kimi yetişməsində əvəzsiz rol oynayır. Təkcə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində gənclərin dünyanın aparıcı ali təhsil müəssisələrində ölkəmiz üçün prioritet hesab olunan ixtisaslar üzrə təhsil almaları üçün, ümumilikdə, 3558 nəfər təhsil almaq hüququ qazanıb. Böyük Britaniya, Türkiyə, Almaniya, Kanada və Niderland Krallığı tələbələrin təhsil almaları üçün seçdikləri ilk 5 ölkə olub. Təhsillərini yüksək akademik göstəricilərlə tamamlamış məzunların 60 faizi özəl, 40 faizi isə dövlət sektorunda fəaliyyət göstərir. Qeyd edək ki, Dövlət Proqramı çərçivəsində sonuncu təhsilalanın 2021-ci ildə məzun olması gözlənilir.

Qətiyyətlə deyə bilərik ki, Azərbaycanın gələcəyi üçün layiqli, ləyaqətli və vətənpərvər gənclər yetişir. 2016-2017-ci tədris ilində müxtəlif layihələr reallaşıb. Respublika fənn olimpiadaları keçirilib və iştirak edən şagirdlərin sayı xeyli artıb. Qaliblər arasında paytaxtla müqayisədə bölgə məktəbliləri üstünlük təşkil edib, 260 şagird olimpiadanın qalibi adına layiq görülüb. Qazaxıstanın Almatı şəhərində məktəblilərin Jautıkov adına XII Beynəlxalq Fizika, Riyaziyyat və İnformatika Fənn Olimpiadası keçirilib. Məktəblilər fizika fənni üzrə 2 gümüş, 1 bürünc, riyaziyyat fənni üzrə 2 bürünc və informatika fənni üzrə 2 bürünc medal olmaqla, 7 medal əldə ediblər. "Sağlam təhsil-sağlam millət" layihəsi çərçivəsində 52 "Sağlam təhsil" sinfi yaradılıb. Hazırda Bakıda 33, Sumqayıtda 1 ümumtəhsil məktəbi olmaqla, ümumilikdə, 34 təhsil ocağında 67 "Sağlam təhsil" sinfi fəaliyyət göstərir ki, bu da təhsilimizdə yenilik və uğurlar sırasındadır.

Azərbaycan təhsilinin inkişafında Heydər Əliyev Fondunun müstəsna xidmətləri də xüsusi vurğulanmalıdır. Heydər Əliyev Fondu tərəfindən məktəblər əsaslı şəkildə təmir olunur, məktəblilərin təhsil almaları üçün lazımi şərait yaradılır.

Belə bir mühitdə təhsil alan bugünkü məzunlar Azərbaycanın demokratik bir dövlət kimi daha da inkişaf etdirilməsi üçün çalışmalı, bütün qüvvələrini ölkəmizin uğurlarına yeni uğurlar əlavə etməyə sərf etməlidirlər. Bu günün məzununu həyata hazırlayan güclü dövlətimiz, sağlam düşüncəli ziyalılarımız olduğundan mətin, iradəli və intellektual səviyyəli gənclərimiz dünən müstəqil həyata vəsiqə aldılar. Sabitliyin və əmin-amanlığın hökm sürdüyü Azərbaycanda məktəblərdə çalınan "Son zəng" - həyata çağırış zəngi məzunların işıqlı sabahına yeni yollar açdı. Yolunuz uğurlu olsun, MƏZUNLAR!

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın xilaskarıdır

***Dünən 15 İyun Milli Qurtuluş Günü ilə bağlı YAP Yevlax rayon təşkilatı ilə Yevlax rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə tədbir keçirilib. İlk öncə, Ulu Öndər Heydər Əliyevin müstəqillik illərindən bəhs edən film nümayiş edilib.***



Sonra YAP Yevlax rayon təşkilatının sədr müavini, aparat rəhbəri Əli Quliyev tədbir iştirakçılarını 15 İyun Milli Qurtuluş Günü münasibəti ilə təbrik edib və 1993-cü ilin iyununda respublikamızda baş vermiş ictimai-siyasi proseslərə geniş nəzər salıb, dövlətçiliyimizin qorunması və vətəndaş qarşıdurmasının aradan qaldırılmasında Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətlərindən danışıb: "20 ildə Azərbaycanın ictimai-siyasi həyatının müxtəlif sahələrində əldə olunmuş uğurlar birbaşa Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Onun respublika rəhbərliyinə qayıdışından sonra ölkə vətəndaşlarının təhlükəsizliyi təmin olunub, iqtisadiyyatda hökm sürən tənəzzül dayandırılıb".

Yevlax rayonu Heydər Əliyev Mərkəzinin direktoru Xatirə Məhərrəmli geniş məruzə ilə çıxış edərək o dövrdə baş vermiş hadisələri ardıcıllıqla tədbir iştirakçılarının nəzərinə çatdırıb.

Tədbirdə Sərdar Məmmədov, Zərxanım Əhmədova, YAP Yevlax rayon təşkilatı idarə heyətinin üzvü Rafiq Əliyev və digərləri çıxış edərək 15 İyun Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən, Ulu Öndər Heydər Əliyevin Vətəni və xalqı qarşısında əvəzolunmaz xidmətlərindən danışıb, Prezident İlham Əliyevin Ümummilli Liderin siyasi xəttini layiqincə davam etdirdiyini diqqətə çatdırıblar. Tədbir Yevlax rayon 5 saylı tam orta məktəbin şagirdlərinin hazırladığı bədii kompozisiya ilə davam etdirilib.

***R.HÜSEYNOVA***



# Hər bir azərbaycanlının taleyində Ulu Öndər Heydər Əliyev dühasının bir zərrəsi var

## *YAP Cəlilabad rayon təşkilatının qərargahında gənclərlə 15 İyun Milli Qurtuluş Günü ilə əlaqədar tədbir keçirilmişdir*

***Dünən YAP Cəlilabad rayon təşkilatının qərargahında gənclərlə 15 İyun Milli Qurtuluş Günü ilə əlaqədar tədbir keçirilmişdir.***

Tədbiri giriş sözü ilə YAP Cəlilabad rayon təşkilatının sədri M.Mirxaslı açmış və qeyd etmişdir ki, 70 il ərzində imperiya nəzarəti altında yaşamağa məcbur olmuş Azərbaycan xalqı daim müstəqilliyini bərpa etmək arzusu ilə yaşasa da, məlum səbəblər üzündən, bu niyyətini yalnız ötən əsrin sonlarında gerçəkləşdirmiş və 1991-ci il oktyabrın 18-də müstəqilliyini bərpa etməyə nail olmuşdur: "O zaman dövlətçiliyin əsaslarını sarsıdan bir çox sosial-mənəvi problemlər hökm sürürdü. Bu, həm də o dövrdəki hakimiyyətdə yüksək vəzifələrdə çalışan bəzi məmurların xarici dövlətlərin təsiri altında hərəkət etməsi və antimilli mövqe tutması ilə dövlət müstəqilliyimizə ciddi zərbə vurulurdu. Bütün bu proseslərdən ölkəmizi xilas etmək üçün xalq Ulu Öndər Heydər Əliyevə müraciət etdi və Onun siyasi hakimiyyətə qayıtmasını tələb etdi. Ulu Öndər Heydər Əliyev öz xalqının səsinə səs verərək, 1993-cü il iyunun 9-da Bakıya gəldi. O, ölkədə yaranmış ağır vəziyyəti ətraflı təhlil edərək, çıxış yolunun ancaq danışıqlar yolu ilə, qarşılıqlı anlaşma vasitəsilə, sülh və barışıqla mümkün olacağını göstərdi və ağır vəziyyətdən çıxmaq üçün həminin birləşərək çalışması təklifini irəli sürdü. Öz xalqının çağırışına səs verən, ölkədəki xaos və anarxiya biganə qalmayan Ulu Öndər Heydər Əliyev hakimiyyətdə hökm sürən çox dərin böhranın aradan qaldırılması üçün konkret əməli fəaliyyətə başladı. Bir xeyli işlər gördükdən sonra Ulu Öndər 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin Sədri vəzifəsinə seçildi, bununla da, Azərbaycanda hakimiyyət böhranının aradan qaldırılmasının təməli qoyulmuş oldu".

Təşkilat sədri çıxışında bildirdi ki, məhz Ümummilli Lider Heydər Əliyevin yorulmaz fəaliyyəti sayəsində, ölkə iqtisadiyyatının bütün sahələri üzrə inkişaf strategiyası işlənib-hazırlanmış və onun həyata keçirilməsinə başlanmışdır: "Ulu Öndər Heydər Əliyev ideyalarını gündəlik fəaliyyətində rəhbər tutan Azərbaycan Prezidenti İlham Əliyevin yürütdüyü məqsədyönlü siyasət sayəsində, son 14 ildə ölkədə həyata keçirilən iqtisadi islahatlar ölkəmizin əsaslı surətdə iqtisadi inkişafının təmin olunmasına şərait yatmışdır ki, bu da respublikamızın hər bir vətəndaşında gələcəyə böyük inam və əminliyi daha da möhkəmləndirmişdir".

Tədbirdə çıxış edən Vüsal Kazımov, Günel Məmmədova, Elçin Hüseynov, Təranə Nəzərova, Ziya Quliyev və başqaları öz çıxışlarında qeyd etmişlər ki, Ulu Öndər Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində həyata keçirdiyi planlar, artıq Azərbaycanın gerçəkliyinə çevrilmişdir: "Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Ulu Öndər Heydər Əliyev dühasının bir zərrəsi var".

Çıxış edənlər, birmənalı şəkildə, bundan sonra da Ümummilli Lider Heydər Əliyev ideyalarına sadiq qalacaqlarını, bu ideyaların, müntəzəm olaraq öyrənilməsi və təbliği ilə məşğul olacaqlarını vurğulamışlar.

***Rəfiqə***

**Erməni mətbuatı ölkədə müşahidə edilən hakimiyyət böhranı ilə bağlı düşündürücü informasiyalar yayır. Göstərilir ki, 2018-ci ildə indiki prezident Serj Sarkisyan baş nazir ola bilər. Buna görə də Karen Karapetyanı vəzifəsindən uzaqlaşdıracaqlar. İndiki baş nazirin artıq iki dəfə istefa ərizəsi yazdığı barədə informasiyalar da mövcuddur. Hər bir halda erməni siyasi dairələrində 2018-ci ildə ciddi dəyişikliklərin olacağı barədə məlumatlar dolaşır. Bununla yanaşı, ölkəni varlı adamların tərk etdiyini də erməni KİV-i vurğulayır. Həmin prosesin arxasında siyasi faktorların dayandığını deyirlər. Belə çıxır ki, artıq Ermənistanda gözlənilən dəyişikliklərdən yaxa qurtarmağa cəhd edənlər var. Yekun olaraq bütün bu proseslərin Ermənistanı daha pis vəziyyətə sürüklədiyini demək mümkündür. Onun yarada biləcəyi fəsadlardan biri də regionda xaosun meydana gəlməsi ola bilər. Ermənistan hələ də Cənubi Qafqazda təhlükə mənbəyi olaraq qalmaqdadır.**




# Ermənistanda siyasi böhran: yeni baş nazir kim olacaq?

## Hökumətin qara günləri: qeyri-müəyyənliklə üz-üzə

Karen Karapetyanı ermənilər hurreylə baş nazirliyə gətirəndə böyük vədlər verirdilər. Ekspertlər yeni baş nazirin həyata keçirəcəyi islahatlardan ağızdolusu danışırdılar. Ehtimal olunurdu ki, Moskvaya yaxınlığı ilə tanınan yeni hökumət başçısı fəal işləməklə, çalışacaq ki, Kremlin ümidlərini doğrultsun. Lakin bir sıra erməni ekspert əvvəlcədən bütün bunların bir oyun olduğu haqqında fikir bildirirdilər. Onlar Ermənistanın real siyasi vəziyyətini təhlil edərək, proqnozlaşdırırdılar ki, əsas məqsədin vəzifə uğrunda savaş olması yaxın zamanlarda bəlli olacaq.

Artıq erməni mətbuatı bu proqnozun doğru olduğunu təsdiq edən informasiyalar yayır. Onlardan "Joxovurd" (Xalq) və "Jamanak" (Zaman) qəzetləri açıq surətdə vurğulayırlar ki, hakimiyyət baş nazirin dəyişdirilməsi oyununu başlayıb. Əsas siqnal kimi Ermənistan parlamentinin sədr müavini, Serj Sarkisyanın partiyasından olan Eduard Şarmazanovun bir fikrini göstərirlər.

E.Şarmazanov deyib: "...parlament seçkilərinin nəticələrinə görə xalq 2022-ci ilə qədər Respublika partiyasına hökuməti formalaşdırmaq və baş naziri təyin etmək hüququ verib... bu, parlament sistemidir, baş nazir sistemi deyil, burada hər şeydən önəmlisi baş nazirin kimliyi deyil, məsuliyyət daşıyan komandanın olmasıdır" (bax: Pressa: Pravəhaə partiə qotovit obhestvennostğ k otstavke premğer-ministra Armenii / "Verelq.am", 6 iyun 2017).

Ekspertlər bu sözləri 2018-ci ildə Ermənistanın tamamilə parlament üsul-idarəsinə keçməsi ilə indi prezident olan Serj Sarkisyanın baş nazir təyin ediləcəyinin ilk ifadəsi kimi qiymətləndirirlər. Bəs, S.Sarkisyan nəyə görə bu addımı atsın? Onun səbəbi ilə bağlı erməni mətbuatı bir arqumenti irəli sürür.

Məsələ ondan ibarətdir ki, E.Şarmazanov 2018-ci ildə baş nazir postuna ölkənin təhlükəsizlik doktrinasını ən yaxşı şəkildə həyata keçirənin yiyələnəcəyini deyib. "Jamanak" bununla bağlı yazır: "Respublika partiyasının mətbuat katibinin sözlərinə qarşı əks arqument gətirmək çətindir. Çünki Ermənistan hakimiyyəti nə qədər keyfiyyətsiz olsa da, onun formalaşmasında əsas amil təhlükəsizlik komponenti olacaq. Həll edilməmiş münaqişəsi və iki qonşu ilə sərhədləri bağlı olan bir ölkə üçün başqa cür ola bilməz" (bax: əvvəlki mənbəyə).

Ermənistandakı siyasi vəziyyət bütövlükdə aydındır. Əvvəla, erməni iqtidarı olduqca çətin situasiyadadır. Yarıtmaz xarici və daxili siyasət ölkəni iflic halına salıb. Belə bir vəziyyətdə hökumətə iqtisadi və siyasi islahatlar apara bilən, idarəetməni şəffaf və demokratik hala gətirən adam başçılıq edə bilməz. Diqqət edirsinizsə, hökumət rəhbərini seçmək üçün əsas faktor kimi təhlükəsizliyi götürürlər. Deməli, demokratiya, insan haqları, iqtisadi islahatların aparılması, xarici siyasətdə barışa və əməkdaşlığa üstünlük vermək yada düşmür. İrəvanın bu kimi sivil məqsədlərlə arası yoxdur. Lakin sözdə rəsmi İrəvan və havadarları daha çox demokratiyadan, insan haqlarından və şəffaflıqdan danışırlar. Yəni bütün bu gəlişigözəl sözlər real acınacaqlı vəziyyəti gizlətmək üçün deyilir.

İkincisi, aydın olur ki, S.Sarkisyanın dərin korrupsiya sistemi ölkədə demokratik idarəetməyə və real iqtisadi-sosial islahatlar aparmağa imkan vermir. Buna görə də hökumətə başçı Respublika partiyasından, yəni korrupsiyanı yaradan siyasi dairədən olmalıdır. Bu keyfiyyətdə isə daha çox S.Sarkisyan fərqlənir. O, hökumətə ya özü başçılıq etməklə, ya da daha optimal variantda prezident qalaraq ən yaxın korrupsiyaçını gətirməklə vəziyyətdən çıxa bilər. Necə deyərlər, "filankəs filankəsin ayağını basmaz". Buna görə də K.Karapetyanın vəzifədən uzaqlaşdırılması mümkündür.

## Region təhlükədə: Ermənistan xaos və risk mənbəyi kimi

Nəhayət, başqa bir məqamı da vurğulamaq lazımdır. Ermənistan KİV-i informasiya yayır ki, ölkədən varlı adamlar qaçırlar. Onların sırasında keçmiş baş nazirin yaxın adamları (məsələn, qardaşı) vardır. Onlar özləri bunu siyasi səbəblərlə izah etmirlər. Ancaq fakt faktlığında qalır - bir zamanlar yüksək vəzifə tutmuş və xeyli kapital toplamış adamlar, yavaş-yavaş aradan çıxmağa başlayıblar. Səbəb nədir?

Əsas səbəb ölkənin çox ağır sosial-siyasi və iqtisadi durumda olması ilə bağlıdır. Artıq imkanlı adamlar belə ölkədə vəziyyətin düzələ biləcəyinə ümid etmirlər. Bütün sahələr üzrə böhran getdikcə daha da dərinləşir. Sərmayə qoyub, fəaliyyət göstərmək imkanları da minimumdur. Çünki bütün sferalar hakimiyyətdəki bir qrupun tam nəzarəti altındadır. Onların başı üstündə də Kremldəki havadarları dayanır. Belə bir şəraitdə Ermənistanda varlı olmaq təhlükəlidir, risklidir. Bunlarla yanaşı, hakimiyyətdə olmuş adamların ölkədən qaçması arxasında onların da korrupsiyaya qurşanması faktı dayanır. Bəzi ayıq oliqarxlar anlayırlar ki, müəyyən müddətdən sonra onları meydana çıxacaq yeni korrupsiya sistemi çökdürə bilər. Bu səbəbdən indidən bütün varidatlarını daha təhlükəsiz olan Avropaya daşıyırlar, sonra da özləri gedirlər. Bütün bunların fonunda baş nazir Karen Karapetyanın iki dəfə istefa ərizəsi yazmaq istəməsi ilə bağlı erməni KİV-də yayılan informasiyaların təsadüfi olmadığı görünür. Ya doğurdan da, K.Karapetyan çarəsizlikdən canını vəzifədən qurtarmaq fikrinə düşüb, ya da ona dolayısı ilə xəbərdarlıq edirlər ki, sıra sənə də gələ bilər. Hər iki variantda indiki baş nazirin çox pis vəziyyətə düşdüyünü demək olar. Onun siyasi taleyinin necə olacağını yəqin ki, Serj Sarkisyan yox, Kremldəki ağaları müəyyənləşdirəcək.

Yuxarıda ifadə edilən fikirlərin fonunda bir məqam tam aydın olur - Ermənistanda müşahidə olunan sosial, siyasi və iqtisadi böhranın müxtəlif səbəbləri vardır. Bütövlükdə bu ölkədə dövlətçiliyin böhranı meydana gəlib. Bütün sistem iflic vəziyyətinə düşüb. Sözdə parlament idarəetmə sisteminə keçid, reallıqda konkret nəticə verə bilməz. Çünki bütün hallarda demokratik idarəetmə aydın şərtlərin olduğu mühitdə mövcud ola bilir. Burada da inqilabi deyil, liberal transformasiyalar əhəmiyyət kəsb edir.

Ermənistanda korrupsiyanın hakimiyyətin və cəmiyyətin dərinliklərinə qədər işləməsi durumunda hansı şəffaflıqdan, yaxud demokratik idarəetmədən danışmaq olar? Mümkün deyildir, çünki bütün hallarda islahatlar korrupsiya sistemində ilişib qalacaq. Kadrlar da bacarığa, peşəkarlıq və demokratikliyə görə deyil, korrupsiya sisteminin marağına görə həyata keçiriləcək. İndi müşahidə edilən proseslər bunu təsdiq etməyə imkan verir.

Unutmaq olmaz ki, parlament seçkisində uğur qazananlar sırasında "Daşnaksütyun" da var. Daşnakların demokrat olduqlarını heç özləri də deyə bilməzlər. Onların amalları başqadır - terror. Yalnız bu üsulla siyasi məqsədlərinə çata biləcəklərini düşünürlər. Daşnaklar indi hökumətdə daha çox yer tutmağa çalışırlar. Onda yeni hökumət mahiyyətcə kim olacaq - demokrat, yoxsa daşnak! Təbii ki, daşnakların olduğu yerdə demokratiyadan danışmaq gülüncdür Deməli, hökumətdə bir oyun gözlənilir. Bu prosesdə Ermənistan demokratikləşmə və iqtisadi inkişafa deyil, yeni xaos mərhələsinə qədəm qoyacaq. Bunlardan aydın olur ki, hazırda Ermənistanda müşahidə edilən siyasi hakimiyyət böhranı kifayət qədər ciddi nəticələr verə bilər. Kənardan olan təsirlər və regionda gedən geosiyasi proseslər fonunda Ermənistan hakimiyyətinin olduqca çətin vəziyyətə düşməsinə şübhə yoxdur. Bu isə başqa fəsadlarla yanaşı, Cənubi Qafqazda müharibə riskini artırmış olur. Çünki Sarkisyan rejimi aranı qarışdırmaqla əsas təzyiqləri özündən yayındırmağa çalışacaq. Bunun mümkün əlamətlərindən biri də Dağlıq Qarabağ istiqamətində yeni erməni təxribatlarının olması ehtimalı ilə bağlıdır. Ermənistan hərbi təxribatlar törətməklə bölgəni xaosa sürükləyə bilər. Bu da öz növbəsində müəyyən qüvvələrin burada daha çox silah və hərbi qüvvə yerləşdirməsinə imkan yaradar. Təbii ki, belə həssas vəziyyətdə münaqişənin ədalətli həllindən söhbət gedə bilməz. Deməli, Ermənistan dövlət olaraq öz mənfur fəaliyyətini davam etdirir.

**Newtimes.az**

# Milli Məclisin növbədənkənar sessiyasının ilk iclası keçirilib

***İyunun 13-də Milli Məclisin növbədənkənar sessiyasının ilk iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclisin sədri Oqtay Əsədov bildirdi ki, gündəliyə 38 məsələ daxil edilib. Gündəliyin təsdiqindən sonra müzakirələrə başlanıldı.***



Əvvəlcə Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və İnzibati Xətalar Məcəlləsinə təklif olunan dəyişikliklər haqqında məlumat verən hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirdi ki, dəyişikliklər "İdmanda dopinq vasitələrindən və üsullarından istifadəyə qarşı mübarizə haqqında" 2016-cı il 29 noyabr tarixli Qanunun tətbiqi ilə əlaqədar təklif edilir. Həmin qanuna uyğun olaraq "dopinq vasitələrindən və metodlarından istifadə" anlayışı "dopinq vasitələrindən və üsullarından istifadə" anlayışı ilə əvəz edilir.

Sonra gənclər və idman komitəsinin sədri Fuad Muradov məlumat verdi ki, həmin dəyişiklik "Bədən tərbiyəsi və idman haqqında" Qanuna da təklif edilir.

Deputatlar hər üç qanuna təklif olunan dəyişiklikləri səsə qoyaraq təsdiqlədilər.

"Atçılıq haqqında" və "Damazlıq heyvandarlıq haqqında" qanunlara təklif olunan dəyişikliklər barədə aqrar siyasət komitəsinin sədri Eldar İbrahimov məlumat verdi. Bildirdi ki, hər iki qanuna təklif edilən dəyişikliklər "Normativ hüquqi aktlar haqqında" Konstitusiya Qanununa uyğun olaraq məsuliyyəti müəyyən edən qanunun adının dəqiqləşdirilməsi məqsədilə hazırlanıb. Belə ki, dəyişiklikdə İnzibati Xətalar Məcəlləsinin konkret adı göstərilir.

Hər iki dəyişiklik səsə qoyularaq təsdiqləndi.

Sonra Azərbaycan Respublikasının Əmək Məcəlləsinə təklif olunan dəyişikliyi şərh edən iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə bildirdi ki, qanunun 12-ci maddəsinə yeni bənd əlavə olunur. Bu bənddə göstərilir ki, işəgötürən bu Məcəllə ilə işçiyə ödənilən bütün ödənişlərin "Nağdsız hesablaşmalar haqqında" Qanuna uyğun olaraq ödənilməsini təmin etməlidir. Bu məcəlləyə və bundan başqa, "Turizm haqqında", "Təhsil haqqında", "Sosial müavinətlər haqqında", "Sosial sığorta haqqında", "Məşğulluq haqqında", "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında", "Terrorçuluğa qarşı mübarizə haqqında", "Azərbaycan Respublikasında vərəmlə mübarizə haqqında", "Körpələrin və erkən yaşlı uşaqların qidalanması haqqında", "Bələdiyyə qulluğu haqqında", "Sığorta fəaliyyəti haqqında", "İcbari sığortalar haqqında", "Əmək pensiyaları haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında" qanunlara təklif olunan dəyişikliklər "Nağdsız hesablaşmalar haqqında" Qanuna uyğunlaşdırma məqsədi daşıyır.

Qanunlara təklif olunan dəyişikliklər ayrı-ayrılıqda səsə qoyularaq təsdiqləndi.

Ziyad Səmədzadə "Valyuta tənzimi haqqında" Qanuna dəyişiklik edilməsi barədə layihəni təqdim edərək bildirdi ki, dəyişikliyin məqsədi gömrük orqanları tərəfindən valyuta sərvətlərinin transsərhəd daşınması zamanı cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin leqallaşdırılması izləri aşkar olunduqda, bu izlərin tədqiqi və maliyyə monitorinqi orqanına ötürülməsi məsələlərini müəyyən etməkdən ibarətdir. Müzakirələrdən sonra qanun layihəsi qəbul edildi.

Sonra Milli Məclis sədrinin birinci müavini, müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov "Terrorçuluğa qarşı mübarizə haqqında" Qanuna dəyişikliklər edilməsi barədə layihəni təqdim etdi. Bildirdi ki, sənədin 1-ci maddəsinə edilən dəyişikliyə görə, maddənin üçüncü və beşinci abzaslarında "terrorçu" və "terror təşkilatı" anlayışları dəqiqləşdirilir və onların izahı daha dolğun şəkildə verilir. Terror mürəkkəb tərkibli cinayət olduğu üçün bu anlayışların yeni izahında bütün subyektlər əhatə olunur. Təklif edilən dəyişikliklər "terrorçu" və "terror təşkilatı" anlayışlarının beynəlxalq standartlara və bu sahədə beynəlxalq konvensiyanın tələblərinə uyğunlaşdırılması məqsədini daşıyır. Müzakirələrdən sonra qanun layihəsi səsə qoyularaq təsdiq edildi.

İclasda qanunvericiliyin uyğunlaşdırılması və dəqiqləşdirilməsi üçün Cinayət Məcəlləsində, İnzibati Xətalar Məcəlləsində və "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" Qanuna dəyişikliklər edilməsi barədə qanun layihələri də təsdiqləndi. Gündəlikdə olan "Sığorta fəaliyyəti haqqında" Qanuna dəyişikliklər edilməsi barədə layihə isə eyniləşdirilməsi həyata keçirilməli olan sığorta fəaliyyəti subyektlərinin dairəsini dəqiqləşdirir. Layihə səsə qoyularaq qəbul olundu.

Mənzil Məcəlləsinə dəyişikliklər edilməsi haqqında qanun layihəsini isə Milli Məclisin hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli təqdim etdi. Onun sözlərinə görə, layihənin məqsədi çoxmənzilli binanın (o cümlədən kooperativ binanın) idarə edilməsi ilə bağlı mexanizmlərin təkmilləşdirilməsindən, idarəetmədə mənzil mülkiyyətçilərinin daha yaxından iştirakının təmin olunmasından ibarətdir. Qanun layihəsinə əsasən, çoxmənzilli binanın idarə olunması ilə bağlı qaydalar müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən ediləcək, bu binaların idarə edilməsi ilə bağlı müqavilələr həmin qaydaların tələblərinə uyğun olaraq bağlanılacaq, eyni zamanda, binanın idarə edilməsi zamanı bu qaydaların tələblərinin pozulması məsuliyyətə səbəb olacaq. Müzakirələrdən sonra qanun layihəsi qəbul edildi.

İclasda müzakirə olunan növbəti qanun layihəsi "Təhsil haqqında" Qanuna dəyişikliklər edilməsi barədə idi. Dəyişikliklər ali təhsil müəssisələrinin bakalavriat səviyyəsinə tələbə qəbulunun hazırlıq qrupları vasitəsilə həyata keçirilməsini nəzərdə tutur.

Sonra qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə Torpaq, Gömrük, Vergi məcəllələrində, "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında", "Dövlət qulluğu haqqında", eləcə də "Məhkəmələr və hakimlər haqqında" qanunlara dəyişikliklər edilməsi barədə qanun layihələri də təsdiqləndi.

Sonda isə "İşsizlikdən sığorta haqqında" qanun layihəsinin birinci oxunuşda müzakirəsinə başlanıldı.

Milli Məclisin əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli bildirdi ki, qanun layihəsinin məqsədi Azərbaycanın əmək bazarında riskin ötürülməsinə əsaslanan münasibətlərin və yeni maliyyələşmə mexanizmlərinin yaradılması, sığortaolunanların itirilmiş əməkhaqlarının kompensasiya olunması və işsizliyin yaranması hallarının qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin görülməsi yolu ilə əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təminat verilməsidir. Bu qanun dövlət orqanının və ya hüquqi şəxsin ləğv edilməsi və ya işçilərin sayı və ya ştatların ixtisar edilməsi nəticəsində əmək münasibətlərinə xitam verilmiş şəxslərə şamil edilir. Qanun layihəsinin 2018-ci il yanvarın 1-dən qüvvəyə minməsi nəzərdə tutulur.

Müzakirələrdən sonra layihə səsverməyə çıxarılaraq birinci oxunuşda qəbul edildi. Bununla da Milli Məclisin növbədənkənar sessiyasının ilk iclası başa çatdı.



**RÖVŞƏN**
rovsen.rasulov@mail.ru

## Müxalifət seçkilərə hazırlaşmalıdırmı?

***Bir neçə müddətdir ki, ənənəvi düşərgə daxilində 2018-ci seçki ili ətrafında planlar müzakirə olunur. Düzdür, həmin planların müzakirələri bəri başdan düşərgənin hər hansı üstünlük mövqeyini sərgiləmədiyini göstərsə də, özlərini "ana müxalifət" partiyaları kimi nümayiş etdirən partiyalar hələ də nəyəsə ümid edərək, siyasi arenada "söz sahibi" olduqları qənaətində qalmaqda davam edirlər. Halbuki dağıdıcı müxalifət, artıq uzun illərdir ki, xalqdan təcridolma funksiyası ilə fəaliyyət göstərərək olan-qalan elektoratını da getdiyi yolda itirib.***

### Cəmil Həsənli və Əli Kərimlinin açıq şəkildə xalqı ittiham etmələrini göstərsək, nəyin-necə olduğunu görə bilərik

Çünki siyasi cəhətdən heç bir yararı olmayan, əksinə, dövlət maraqlarına qarşı çıxış edərək, şəxsi mənfəət arxasınca qaçan "liderlər", artıq öz ətrafındakılarını da bezdiriblər. Bu bezginlik isə, əslində, onların seçkilərə qatılıb uğur qazanmaq şanslarını tamamilə puç edir. Zaman-zaman düşərgədəki partiyaların aparıcı funksionerləri belə, seçkilərdə uduzduqlarını etiraf etmələri ilə yanaşı, xalqın dəstəklədiyi hakimiyyət qarşısında təslim olduqlarını bildiriblər. Digər reallıq isə budur ki, müxalifət "liderləri" bir tərəfdən, xalqın onları dəstəkləməməsi məsələsində özlərinə haqq qazandırmaq üçün, məhz xalqı ittiham edirlər. Təkcə "Milli Şura"-AXCP cütlüyünün "liderləri" Cəmil Həsənli və Əli Kərimlinin açıq şəkildə xalqı ittiham etmələrini göstərsək, nəyin-necə olduğunu görə bilərik.

Müsavat, KXCP, AMİP və s. köhnəlmiş, siyasi nimdaşlıqları uzaqdan görünən digər müxalifətçi partiyalar da eyni vəziyyəti yaşamaqla yanaşı, politoloji gündəmdən silinməmələri üçün gah bu, gah da digər lüzumsuz "ideyalarla", səriştəsiz "planlarla" çıxışlar edərək, bunu fəaliyyət kimi göstərməyə çalışırlar. Fəqət, ortada nə fəaliyyət, nə də siyasi üstünlük görünür. Bu amil isə, əslində, onların seçkilərə qatılmaq, ümumiyyətlə, ictimai-siyasi proseslərdə aktivlik nümayiş etdirmək şanslarının olmadığını daha çox sərgiləmiş olur.

Məhz bu kimi amilləri sadaladıqca görünən reallıq budur ki, müxalifətin indidən çəkdikləri "zəhmətləri" əbəs və yersizdir. Onlar düşərgəni tərk etmələri əvəzinə "seçkilərə hazırlaşırıq" tipli bəyanatlar verməklə, özlərini ağır vəziyyətə salırlar. Əgər bu gün kimsə sual etsə ki, müxalifət seçkilərə hazırlaşmalıdırmı? Əlbəttə ki, bu sualın cavabı yalnız və yalnız neqativdir - yəni ki, yox...

## Lukaşenko: Təzyiqlərə baxmayaraq, Belarus və Rusiya birgə hərbi təlim keçirəcək



Təzyiqlərə baxmayaraq, Belarus və Rusiyanın birgə "Qərb-2017" hərbi təlimi daha böyük miqyasda keçiriləcək. Bu fikri Belarus Prezidenti Aleksandr Lukaşenko iyunun 13-də Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv ölkələrin müdafiə nazirləri ilə görüşündə deyib. A.Lukaşenko bildirib ki, Belarus həm MDB, həm də KTMT çərçivəsində qərb istiqamətində təhlükəsizliyə cavabdehdir və birgə təlim payızda Belarusun ərazisində keçiriləcək: "İnanıram ki, Rusiya tərəfində də eyni əhval-ruhiyyədir. Biz kimlərisə qorxutmuruq. Bizə özgələri lazım deyil. Biz ordumuza ərazisini, dövlətini, xalqını necə qorumağı öyrədirik və bundan sonra da öyrədəcəyik". Belarus Prezidenti vurğulayıb ki, bu təlim hamı üçün açıqdır. Qoy, bizim gücümüzü görsünlər.

# "VİP" də "ana müxalifətəm" deyib, bu iddia ilə çıxış edənləri hədəfə aldı

*Ramil Hüseynov: "Müxalifət ətrafında olan mənəviyyatsiz, ləyaqətsiz, xarici ölkələrə çalışmaq üçün əldən-ayaqdan gedən adamcıgazları təmizləməlidir"*

***Müxalifət partiyalarının önə çıxaraq, aparıcı siyasi təşkilat olduqlarını müxtəlif üsullarla nümayiş etdirməyə çalışan "liderləri" bu dəfə digər müxalifət partiyası - "VİP" tərəfindən hədəfə alındı. Bu kimi məsələlərdə daha çox ittihamedici mövqedə dayananlar sırasında ADP sədri Sərdar Cəlaloğlunu, "Azadlıq" Partiyasının sədri Əhməd Orucu və başqalarını görməyə alışsaq da, onların sırasına "VİP" təmsilçisinin də qoşulması maraqlı nüans kimi görünür.***

Başqa tərəfdən, irəli sürülən ittihamlar eynilik təşkil etsə də, görünən budur ki, artıq uzun zamanlardır özlərini "ana müxalifət" partiyası kimi təqdim edən Müsavat və AXCP kimi siyasi qurumların bu iddiaları qarşı tərəfləri qıcıqlandırır. Görünür, "VİP" funksionerinin də qıcıqlananlar sırasına qoşulması, məhz bununla bağlıdır.

## "Dünyanın bu cür sürətlə inkişafı sanki onlara aid deyil"

"VİP"-in sədr müavini Ramil Hüseynovun sözlərinə görə, özünü müxalifət partiyaları arasında ən güclüsü hesab edən, özünə ata, ana, nənə, baba, xala statusu verən qurumlardan soruşmaq lazımdır ki, durumunuz necədir?



SİTAT: "Nə qədər müxalif qurumlar öz aralarında sadaladığım titullar uğrunda mübarizə aparacaqlar, durumları tənəzüllə doğru gedəcək. Bu, çox təəssüfedici faktordur".

R.Hüseynov, bilavasitə olmasa da, dolayı yollarla AXCP və Müsavat rəhbərliyini kolxoz təfəkkürlü adam adalandırıb. Onu da bildirib ki, bu partiya sədrlərinin bəziləri köhnə kolxoz psixologiyasından hələ çıxmayıblar və çıxmaq istəkləri də yoxdur: "Dünyanın bu cür sürətlə inkişafı sanki onlara aid deyil. Bu gün dünyada baş verən proseslər diktə edir ki, ayılmaq lazımdır".

"VİP" rəsmisi düşərgədə xarici qüvvələrə işləyərək, maddi məqsədlərini güdənlərə də səslənərək deyib ki, belələrinin siyasi arenada, ümumiyyətlə yerləri yoxdur. "Müxalifət ətrafında olan mənəviyyatsiz, ləyaqətsiz, xarici ölkələrə çalışmaq üçün əldən-ayaqdan gedən adamcıgazları təmizləməlidir"-deyə tələb irəli sürən R.Hüseynova görə, dövlətçiliyi bütün dəyərlərdən üstün tutan insanlar ölkədə siyasi və digər statuslara malik olmalıdır.

## <u>Arif Hacılının bostanına "VİP" daşı atıldı:</u> "Müsavatda problemlər davam edəcək"

Yeri gəlmişkən, "VİP" həm də o müxalifət partiyalarındandır ki, zaman-zaman Müsavat partiyası ilə kəskin qarşıdurmalara gedib. Görünür, bu səbəbdən, R.Hüseynov yenə də hədəf kimi əsas olaraq Müsavatı və onun başqanı Arif Hacılını seçib. "Siyasi partiyalarda daha çox partiya liderinə pərəstişlik mövcuddur"- bildirən VİP sədrinin müavini, bu baxımdan, Müsavatda da müəyyən problemlərin olacağını gözlədiyini, eləcə də, istefaların baş aldığını bildirib. O, İsa Qəmbərin başqanlıqdan gedişindən sonra yerinə A.Hacılını təyin etməsini buna əsas olaraq göstərib: Çünki İsa bəyin sədrlikdən getməsi digərinin onu əvəz etməsi hamı tərəfindən qəbul olunmayacaq və artıq bu, özünü göstərir".

Beləliklə, düşərgədaxili qarşıdurmaların yay mövsümünə start verilib. Bu mövsümdən hansının necə çıxacağını isə, çox yəqin ki, yay tətilindən sonra görəcəyik.

***Rövşən NURƏDDİNOĞLU***

# ADP -AXCP qalmaqalı yenidən başlayıb

*<u>Sərdar Cəlaloğlu:</u> "Əli Kərimli "Azərbaycan siyasətinin primadonnası"dır"*

***ADP sədri Sərdar Cəlaloğlu ilə AXCP sədri Əli Kərimli arasında başlayan söz savaşı yenidən gərginləşib. Səbəb də AXCP üzvlərinin Ə.Kərimlinin göstərişinə əsasən, sosial şəbəkələrdə və mətbu orqanlarda ADP sədrinin ünvanına təhqirlər səsləndirmələri, ittihamlar irəli sürmələridir. S.Cəlaloğlu Ə.Kərimlini "Azərbaycan siyasətinin primadonnası" adlandırması partiyalar arasındakı virtual savaşın dərinləşməsinə səbəb olub. ADP sədri bildirib ki, nə qədər Ə.Kərimli AXCP sədridir, partiyadan istefalar dalğası getdikcə genişlənəcək.***

## Satqınlıq kompleksi Əli Kərimlinin obrazında

ADP sədri AXCP-də yaranmış bugünkü duruma da aydınlıq gətirərək bildirib ki, Ə.Kərimlinin gizli və örtülü bir siyasəti var: "Nəyə görə oradakı insanlar oranı tərk edir? Çünki AXCP-nin konkret ideologiyası və siyasi palitrada özünəməxsus bir yeri yoxdur. Məsələn, biz ADP olaraq demokratik dəyərlərə üstünlük veririk, digərləri də öz mövqelərini müəyyən dəyərlər üzərində açıqlayırlar. Ancaq AXCP-nin nəyə prioritet verdiyi, nəyə xidmət etdiyi məlum deyil".

ADP sədri S.Cəlaloğlu onu da qeyd edib ki, Ə.Kərimli üzərinə yeni bir missiya götürüb: "Azərbaycanda siyasi partiyalara ad qoyur ki, Müsavat filandır, AMİP filandır, bunlar satqındır. A bala, sənə bu hüququ kim verib? Sən də siyasətin primadonnasısan? Belə şey olar?"

## "Ə.Kərimli ən çox ittihamlara məruz qalmalı olan adamdır "

ADP sədri Əli Kərimlinin bu günə kimi düzgün bir əxlaqa malik olmadığını da bildirib: "Ə.Kərimli özünü müxalifətin lideri sayır. Axı sən kimsən? Bu gün heç AXCP lideri ola bilməmisən. Elçibəyin ölümündən sonra partiya parçalandı. Onun hansı addımı cəmiyyət və müxalifət düşərgəsi daxilində



qəbul edilir? O, 10-15 nəfər gənci internetə qoşub, özünə səs yazdırmaqla məşğuldur. Bu, balaca uşağın öz-özü ilə oynamasına bənzəyir. Bunlar Ə.Kərimlinin özünə qarşı işləyən bir "piar"dır. O, ən çox ittihamlara məruz qalmalı olan adamdır. Ə. Kərimli deyir ki, Elçibəy liderimdir. Qeyd edim ki, ölənə qədər Elçibəy onu yaxına buraxmamışdı. Çünki ona sağlığında xəyanət etmişdi. Sən özün bir keçdiyin yola bax. Müxalifətin bu günə düşməsinin baiskarı sənsən".

Göründüyü kimi, ortada olan ambisiyasını səviyyəsiz fəaliyyəti ilə sərgiləyən Ə.Kərimli bununla çox da uzağa gedə bilməyib və gedə də bilməyəcək.

***R. HÜSEYNOVA***



# Traktorçu "lider"lər və Lalə Şövkət

**SAMİR**

***Valeh İbadov adlı biri var, tam səmimi deyirəm: özünü müxalifətçi adlandıran bu adam əsl psixi şizofrenikdir. Özünü hər yerdə partiya sədri kimi təqdim eləyir. Partiyasının adını çəkmək istəmirəm, çünki belə bir partiyanın adı heç it dəftərində də yoxdur. Cəmi-cümlətanı iki nəfər üzvü var, onlar da doğma qardaşlar. Bu doğma qardaşlardan da biri Azərbaycanda o qədər fırıldaqçılıq elədi ki, axırda tutub içəri basdılar. Həbsxanadan da çıxan kimi gördü ki, daha aldatmağa adam qalmayıb, Ukraynaya qaçdı. İndi bu şizofreniklərdən biri burdadır - Bakıda... V.İbadov... Bütün günü Azərbaycan dövlətinin ünvanına hədyanlar, təhqirlər yağıdıran bu adamın tarixçəsi ilə sizləri tanış edim. Özü demişkən, Biləsuvar rayonunda sonuncu traktorunu satıb "siyasət"ə gəlib.***

Ali təhsili yoxdur, natamam orta təhsillidir, ancaq hamıya Ukraynada təhsil aldığını deyir. Halbuki xarici pasportu belə heç vaxt olmayıb. Özü də deyir ki, "Ukraynada Azərbaycan tarixi fakültəsini bitirmişəm...". Gülməli yox, acınacaqlı haldır, vallah! İlk dəfə Lalə Şövkətin partiyasına üzv olub, sonra Müsavatın. 2001-ci ildə AXCP-yə üzv olub, sonra da İsgəndər Həmidovun həndəvərində fırlanıb. Tak çto, bu adam hər il doğum gününü müxtəlif partiyalardan birində qeyd eləyib. İndi əqidədən və vicdandan dəm vurur. Söhbətimi nəyə gətirirəm, ondan danışım. Deməli, bu Valehin yaxın dostu var ki, adı da Adildir. Lalə Şövkətin çox yaxını olub, elə Valehi də onun yanında ilk dəfə bu Adil aparıb. Adillə bir neçə gün bundan öncə təsadüfən rastlaşdım və mənə L.Şövkət haqqında çox "maraq"lı bir hadisəni nəql elədi.

Deməli, L.Şövkət "Sabir bağı" ilə üzbəüz yerləşən binadakı mənzilində tədbir keçirəcəkmiş. Adildən də xahiş ediblər ki, bəs imkan yoxdur, L.Şövkətə kömək elə. Adil də bir torba su alıb, düz L.Şövkətin evinə yollanıb. Qapıdan içəri girəndə, görüb ki, L.Şövkət əlinə yekə bir bıçaq götürüb, evin divarlarını qaşıyır. Bir sözlə, divarları deşik-deşik edib. Adil təəccüblənib və L.Şövkətdən nə üçün belə etdiyini soruşanda, cavab verib ki, bəs özüm belə eləyirəm, deyəcəm ki, hakimiyyət mənim evimə "limonka", "qranat" atdırıb və evim bu hala düşüb. Biabırçılığa baxın! Bu gözünə döndüyüm Adil dözə bilməyib və evə qranat düşsə evin nə gündə ola biləcəyini L.Şövkətə izah eləyib. Deyib ki, bu yalana heç kim inanmaz, axı qranat atılsa, gərək pəncərələr də sınıb, çilik-çilik ola... L.Şövkət bu sözü eşidən kimi, tez əlini stula atıb pəncərəyə zollayıb, pəncərə qırıq-qırıq olub, stul da küçədən gedən bir nəfərin başına düşüb.

Axı bu süni ajiotaj nəyə lazımdır? AXCP sədri Ə.Kərimlinin də sözdaşıyanları Qarabağ əlilini öyrədirlərmiş ki, özünə xəsarət yetir, onsuz da şikəstsən. Biz də, öz növbəmizdə, hay-həşir salaq. Amma gərək özünə xəsarət yetirməmişdən öncə, cəbhəçiləri də çağırasan. Vallah, başa düşmək olmur. Dövlətə və millətə düşmən olmadan müxalifətçi olmaq mümkün deyil, ay cəbhəçilər? Müxalifətçi olmaq üçün mütləq satqın olmaqmı lazımdı!? Bu də, kim cəbhənin şinelindən çıxırsa, hamısı dəli olur. Razi Nurullayev də utanmadan deyir ki, guya Azərbaycanda ən güclü partiya onun partiyasıdır. Rəhmətlik Siyavuş Aslan demişkən, belələrinə nə ad qoymaq olar!?

# Müasir Azərbaycanda insan hüquqları tolerantlıq və multikulturalizm fəlsəfəsi kontekstində

***Müasir dövrdə insan hüquqlarına dair bir çox nəzəriyyələr və sanksiyalar mövcuddur. Bunlardan hüququn politologiyası və ya hüquqi politologiya nəzəriyyəsi diqqəti cəlb edir. Bu müasir siyasi və hüquqi nəzəriyyələr, fərdi, qrup, kollektiv və ən ümumi insan hüquqlarının qarşılıqlı münasibətlərinə və vəhdətinə dair konsepsiyalar irəli sürmüşlər. İnsan hüquqlarının aşağıdakı əsas emanist konsepsiyalarını fərdləşdirmək olar:***

İnsan hüququnun mənşəyinə dair təbii-hüquqi emanist konsepsiyalar;

İnsan hüququnun məzmununa dair siyasi, sosial-iqtisadi, teokratik və ideoloji konsepsiyalar;

Ümumdünya və ya milli-mədəni dəyərlərin prioritetinə görə insan hüquqlarının universallığı və mədəni relyativizm konsepsiyaları;

Tarixi və ya sivilizasion dəyişikliklərə dair müəyyən dövrlərdə - maarifçilik, yeni dövr, qloballaşma və ya multukulturalizm dövrünün insan hüquqları konsepsiyaları;

İnsan hüquqlarının milli-mədəni spesifikasına dair klassik (Qərbi Avropa), Rusiya, islam, yapon, britan, amerikan, Şərq və Azərbaycan konsepsiyaları.

Bu konsepsiyalardan Azərbaycan üçün də səciyyəvi olan insan hüquqları tolerantlıq və multikulturalizmin qarşılıqlı münasibətlərinə dair mülahizələr diqqətimizi cəlb edir və oxuculara bu barədə düşüncələrimizi təqdim edirik.

Məlum olduğu kimi, Oksford lüğətində tolerantlığın (tolerant) - dözümlülüyün mənalarından biri də başqalarının fikirlərinə qarşı liberal mövqe tutmaq və ya bir şeyi Azərbaycan Dillər Universitetinin müəllimi H.F.Abbasova "Tolerantlıq demokratik cəmiyyətin əsas elementi kimi" məqaləsində dözümlülüyün - dini - etnik və siyasi dözümlülüyün mövcudluğunu göstərir. Siyasi dözümlülük barədə müəllif yazır: "Siyasi dözümlülük siyasi əqidəsindən asılı olmayaraq, hər bir şəxsin bütün hüquqlarının təminatıdır. Siyasi dözümlülük demokratik tələbdir ki, daha çox dövlətlər və milli kimliklə sərhədlənir.

Hər bir dövlətdə insan hüquqlarına, konstitusiyaya nə qədər əməl edilsə də, yenə də dözümsüzlük hallarının yaranmasının əsas səbəbləri kimi aşağıdakıları misal çəkə bilərik:

İnsan hüquqlarının pozulması,

İqtisadi bərabərsizlik,

Digər xalqların həyat tərzinə dair biliklərin olmaması,

Siyasi iradənin zəifliyi,

Qanunvericiliyin natamamlığı,

Dövlətin milli strategiyasının olmaması.

Bu halların aradan qaldırılması üçün dövlət tərəfindən bir sıra addımlar atılır və müvafiq qanunvericilik tədbirləri həyata keçirilir. Lakin burada dövlət təkbaşına heç bir şey edə bilməz. Dövlət və vətəndaş qarşılıqlı şəkildə, konkret olaraq, bir sıra tədbirlər görməlidir ki, onlardan ən mühümləri sırasında aşağıdakıları qeyd etmək olar:

Konstitusiyaya qanunverici və inzibati dəstək,

İrqçilik, irqi ayrıseçkiliklə bağlı milli strategiyanın hazırlanması,

Zəif sosial qrupların müdafiəsi üçün preventiv tədbirlər,

Sosial xidmətlər, təhsil, mənzil və digər sahələrdən istifadənin yaxşılaşdırılması,

Tolerant şüur və davranış, dini dözümlülüyün formalaşması,

Yoxsulluq və işsizliyin sayının azaldılması,

Qadın və uşaqlar üzərində zorakılığın qarşısının alınması,

Polis orqanlarının vəzifələrindən sui-istifadə hallarına qarşı profilaktiv tədbirlər".

Müəllif, haqlı olaraq, bu cür tədbirlərin görülməsini insan haqlarının səmərəli müdafiə olunmasını təmin edən əsas amillər hesab edir. Dünyanın müxtəlif dövlətləri və xalqlarında insan haqları və tolerantlığın qarşılıqlı əlaqələrinə müxtəlif yanaşmalar mövcuddur. Amerika Birləşmiş Ştatları tolerantlığı və multikulturalizmi öz konstitusiyasının, Böyük Britaniya isə milli xarakterlərinin ayrılmaz hissəsi hesab edirlər. B.Villiams özünün 1996-cı ildə yazdığı "Tolerantlıq" əsərində yazır: "Dözümlülük hər bir ölkənin vətəndaşları tərəfindən yüksək qimətləndirilir, lakin çox zaman dözümlülük tam dərk edilmir. Bunun da əsas səbəbi qeyri-sabit və müvəffəqiyyətsiz azadlıq təcrübəsidir. Təcrübə elə bir təsis edilmiş nümunədir ki, o, özündə formal və qeyri-formal qaydaları, davranış tərzini, qarşılıqlı münasibəti ehtiva edir. Dözümlülüyün formal qaydaları hüquqi və konstitusional, qeyri-formal qaydaları isə sosial normalardır. Bütün bunlar göstərir ki, dözümlü davranış tərzi liberal cəmiyyətin nail olmaq istədiyi əsas nailiyyətdir və dözümlülük münasibəti də onun açarıdır. Dözümlülük münasibətinin möhkəm qurulmadığı cəmiyyətdə, əsasən, dözümlülük davranışı yaranacaqdır ki, onların ünsiyyəti də, mədəniyyəti də dözümsüzlük davranışlarına məcbur edəcəkdir və beləliklə də, bütün təcrübə bu davranışlar nəticəsində puç olacaqdır".

Dünyada yüksək inkişaf yolu tutmuş Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsi tolerantlıq və multikulturalizm həyat tərzinə çevrilmiş dövlət siyasətinin mühüm tərkib hissəsini təşkil edir.

Mədəniyyətlərarası və sivilizasiyalararası dialoq məkanı olan Azərbaycan həm də tolerant və multikultural, demokratik bir cəmiyyət kimi dünya sosial-mədəni məkanına inteqrasiya olunur. Belə bir dövrdə Azərbaycan müxtəlif xalqların, etnik qrupların, azsaylı xalqların, dinlərin, dillərin, mədəniyyətlərin qovuşduğu, dinc, əmin-amanlıq, sülh şəraitində yaşadığı, tolerant və multikultural dövlətdir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva çıxışlarının birində demişdir: "Sivizilasiyaların dialoqu problemini hansısa abstrakt bir problem kimi müzakirə etməyin vaxtı artıq çoxdan keçibdir. Aydın təsəvvür etmək lazımdır ki, bu problemin arxasında minlərlə insanın taleyi və həyatı dayanır. Sözsüz ki, ilk növbədə, burada ikili standartlar və yanlış stereotiplər siyasətindən uzaqlaşmaq lazımdır. Eyni zamanda, ümumbəşər svilizasiyasından danışarkən, onun yalnız seçilmiş xalqlar tərəfindən yaradıldığı haqqında düşüncələrə də yol verməmək olmaz.

Cəmiyyətdə iqtisadi dəyərlərə meyilli gücləndirən və altruizmi zəiflədən qüvvələr hər zaman mövcud olmuşdur. Bugünkü inkişaf mərhələsində bəşəriyyət daha çox mənəvi dirçəlişə təkan verən yeni ideyalara ehtiyac duyur. Azərbaycan Böyük İpək Yolu üzərində yerləşən ölkə kimi tarix boyu yüksək tolerantlıq mühitini yaşatmışdır. Bu, həm mədəniyyətimizdə, həm də cəmiyyətimizdə dərin iz qoymuşdur. İndi də bizim cəmiyyətdə belə bir tolerantlıq ab-havası hökm sürür. Bakı unikal şəhərdir. Artıq uzun müddətdir ki, burada müsəlman məscidi və atəşpərəst məbədi, katolik kilsəsi və sinaqoq, pravoslav məbədi və kira ilə yanaşı mövcuddur. Onların coğrafi yaxınlığı faktı belə, yüksək tolerantlıq şəraitində birgə fəaliyyətin mümkünlüyünü nümayiş etdirir və hər bir dinin əsas dəyərlərinin ümumbəşəri dəyərlərə üst-üstə düşdüyünü təsdiq edir.

Bütün dünya dinlərinin bir məqsədi və bir məramı var. Biz Tanrıya müxtəlif cür müraciət edə bilərik, ona müxtəlif dillərdə dua edə bilərik, onun şəninə müxtəlif məbədlər ucalda bilərik. Mahiyyət dəyişməz olaraq qalır. Bizim hamımızın bir Tanrımız var və bu, nə qədər sadə səslənsə də, hər bir dinin əsasını təşkil edən dəyərlər ümumbəşəri dəyərlərlə eynidir. Bu, insanları birləşdirən və barışdıran dəyərlərdir. Belə olduğu halda, dindən qarşıdurmaların və münaqişələrin yaradılması üçün istifadə olunması dözülməzdir".

Müasir Azərbaycan universal dəyərlərindən olan tolerantlıq və mutlikulturalizm geniş sosial-mədəni status qazanıb və insanların hüquq bərabərliyi üçün əlverişli şərait yaradır. Tolerantlıq və multikulturalizm Azərbaycan cəmiyyətində birgə insan fəaliyyətini təşkil edən mühüm sosial-mədəni təsir vasitəsi və qarşılıqlı münasibətlərdən biri kimi çıxış edir. Ölkəmizdə mədəniyyətlərarası dialoq insanların hüquq bərabərliyinin, eyni zamanda, reallaşmasına kömək edir .

Hindistanın görkəmli siyasi xadimi Mahatma Qadi müxtəlif din və mədəniyyət nümayəndələri ilə qarşılıqlı hörmət və dözümlülük şəraitində yaşamağı insanların və xalqların hüquq və azadlıqlarının müdafiəsinin əsas şərti hesab edirdi.

2001-ci ilin sentyabrında Cənubi Afrikada keçirilmiş Ümumdünya Konfransı irqçiliyi, kinofobiyanı və onunla əlaqədar olan intolerantlığı insan hüquq və azadlığına zidd olan aktlar kimi qiymətləndirmişdir: "Məhz demokratik dövlətlər bütün etnik qrupların, mədəniyyətlərin və dinlərin nümayəndələrinə şərait yaratmalıdır ki, onlar özlərinə məxsus həyat tərzini yaşasınlar. Eyni zamanda, səy göstirilməlidir ki, qruplar, yaxud əhalinin bəzi təbəqələrinin ictimai işlərin görülməsində bərabərhüquqlu iştirakına və fikirlərin ifadəsinə əngəl olan faktorlar aradan qaldırılsın. Demokratiya irqçiliklə, irqçilik ksenofobiya və onlarla bağlı dözümsüzlüklə bir araya sığmır: azadlıq, dözümlülük və iştirak kimi demokratiyanın əsasını təşkil edən dəyərlərin təsdiqi bu bəlanın rədd edilməsi deməkdir". Yarandığı dövrdən əsrlər boyu Azərbaycan dövləti bütün insanların bərabərlik şəraitində tolerant, multikultural şüura əsaslanan cəmiyyət kimi fəaliyyət göstərmişdir. Fikrimizə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sözləri ilə yekun vurmaq istəyirik: "Müasir Azərbaycanın ərazisində yerləşən dövlətlərdə qədim zamanlardan bəri müxtəlif dillərdə danışan, müxtəlif dinlərə etiqad edən insanlar sülh və əmin-amanlıq şəraitində yaşamışlar. Mədəniyyətlərin və sivilizasiyaların tarixi vəhdəti Azərbaycanda möhkəm tolerantlıq, dözümlülük və mehribanlıq ənənələrinin formalaşmasına gətirib çıxarmışdır".

***Vahid Ömərov,***
***fəlsəfə üzrə fəlsəfə doktoru***




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

səs

Son səhifə 14 iyun

## *Harvard alimləri: Tez-tez kartof yemək 2-ci növ diabet xəstəliyinə səbəb olur*

Harvard Universitetinin alimləri müəyyən ediblər ki, tez-tez kartof yeyənlərdə 2-ci növ diabet xəstəliyinin əmələgəlmə təhlükəsi daha çox olur. Tədqiqatın nəticələri "Clinical Nutrition" jurnalında dərc edilib.

Kartof mineral maddələr, əsasən, kalsium ilə zəngindir. Bu maddələr ürək və böyrək xəstələri üçün xüsusilə faydalıdır. Lakin eyni zamanda, kartof qanda şəkərin kəskin artmasına səbəb olur. Əgər irsən diabetə meyllilik varsa, 2-ci növ diabet əmələ gəlir. Bu xəstəlik zamanı toxumaların qlükoza ilə qidalanması zəifləyir. Tədqiqatın müəllifləri artıq çəkidən əziyyət çəkən qadınlara tərkibində kartof olan qidaları məhdudlaşdırmağı və dənli bitkilər, sellülozlu meyvə-tərəvəz yeməyi tövsiyə edirlər.

## *İngilis alimləri: Yumurta - ən yaxşı səhər yeməyidir*

London mütəxəssisləri ən yaxşı səhər yeməyini müəyyənləşdiriblər. Hər səhər müntəzəm olaraq hansı ərzaqları qəbul etməklə gün ərzində orqanizmi enerji ilə təmin etmək və sağlamlığı qorumaq olar?. Alimlər belə qərara gəliblər ki, yumurta - ən yaxşı səhər yeməyidir. Səhər yumurta yedikdə uzun müddət həm fiziki, həm də intellektual fəallığı saxlamaq mümkündür.

Yumurtanı cəsarətlə ən yaxşı səhər yeməyi adlandırmaq olar. O, protein, D və B12 vitaminləri, amin turşuları və antioksidantlarla zəngindir. Özü də səhər qayğanaq yeyənlər çəkinin artacağından narahat olmaya bilərlər. Xatırladaq ki, bu yaxınlarda Şimali Karolina alimləri hamilə qadınlar üçün donuz əti qatılmış qayğanağı ən yaxşı səhər yeməyi adlandırmışlar. Bu qida uşağın hafizəsinin güclənməsini təmin edir.

## *Rəqs etmək bacarığı kişiləri qadınlar üçün daha cəlbedici edir*

Kişilərin rəqs etmək bacarığı sağlamlıq göstəricisidir və onları qadınlar üçün daha cəlbedici edir. Britaniya alimi Nik Niv belə qərara gəlib. O, Nortambri Universitetində təkamül psixologiyası ilə məşğul olur. Alim rəqs klublarının daimi müştəriləri olan kişilərin iştirakı ilə eksperiment keçirib. Məlum olmuşdur ki, rəqs edən kişilərə baxan qadınlar onların əl və baş hərəkətlərini deyil, bədəninin, başının və boyunun ekspressiv hərəkətlərinə fikir verirlər. Ehtimal ki, qadınların bu cür prioritetləri instinktiv səviyyədə yaranır. Eksperiment iştirakçılarından götürülmüş qan analizi göstərmişdir ki, qadınların fikrincə, ən yaxşı rəqqaslar daha sağlamdırlar.

## *Dişlərin müntəzəm təmizlənməsi ömrü uzadır*

Bristol Universitetinin (İngiltərə) alimləri belə qənaətə gəliblər ki, dişlərin müntəzəm və səylə təmizlənməsi sağlamlığı qoruyur, ömrü uzadır. Tədqiqatçılar qrupunun başçısı Hovard Cenkinson bildirib ki, dişlərin təmiz saxlanması hətta ölümdən qurtarır, çünki ağız boşluğu vaxtında təmizlənməsə bakteriyalar qan dövranına qoşulur və tromb əmələ gətirir. Dişlərin təmizlənməsinə biganə münasibət diş ətinin qanamasına səbəb olur. Nəticədə xəstəlik törədən bakteriyalar qanı zəhərləyir.

Professorun sözlərinə görə, ürək xəstəlikləri və infarkt riskini azaltmaq üçün yeməyi, qan təzyiqini və fiziki durumu nəzarətdə saxlamaqla yanaşı, dişləri də təmiz saxlamaq lazımdır. Mütəxəssislər iddia edirlər ki, dişlərin gigiyenasına əməl edilməməsi ürək-damar xəstəlikləri riskini 70 faiz artırır. Təkcə Birləşmiş Krallıqda hər il 200 min adam həmin xəstəliklərdən dünyasını dəyişir.

## Prosineçki: "Seçmə mərhələnin sonuna qədər vəzifəmi icra edəcəyəm"




Futbol üzrə Azərbaycan milli komandasının baş məşqçisi Robert Prosineçki "Bursaspor"a keçəcəyi ilə bağlı yayılan xəbərlərlə əlaqədar açıqlama verib. SİA həmin açıqlamanı nəzərinizə çatdırır: "Məlumat üçün bildirirəm ki, oyundan sonra ənənəvi olaraq AFFA-nın baş katibi ilə görüşdüm və oyunla bağlı hesabat təqdim etdim. AFFA rəhbərliyinə yaratdığı şəraitə uyğun olaraq millinin komanda şəklində göstərdiyi oyun barədə fikirlərimi ətraflı bildirdim. Baş katiblə eyni ofisdə, hətta bir mərtəbədə işləməyimizə, tez-tez görüşməyimizə baxmayaraq, belə hesabatlar hər oyundan sonra olur. Çox şadam ki, AFFA rəhbərliyi işimdən razıdır və komandanın nümayiş etdirdiyi oyunu yüksək qiymətləndirir. Bu etimadı doğrultmaq üçün seçmə mərhələnin qalan 4 oyununda da var gücümüzlə çalışmağa səy göstərəcəyik.

O ki, qaldı son günlərdə bəzi KİV-də yayılan məlumatlarla, xüsusilə də "Bursaspor"la bağlı təkliflərlə əlaqədar bildirmək istərdim ki, bu hər bir işçi üçün normal haldır. Bu onu göstərir ki, AFFA tərəfindən yaradılan şəraitə əsasən görülən işlər xarici futbol mütəxəssisləri tərəfindən də dəyərləndirilir. Məhz bu səbəbdən də son vaxtlarda adım müxtəlif klublarla birgə hallandırılır. Konkret olaraq, qeyd etmək istərdim ki, AFFA ilə seçmə mərhələnin sonuna qədər müqaviləm var və assosiasiya işimi sona qədər davam etdirməyimi istəyir. Mən də bu fikirdəyəm. Hal-hazırda yaranan fasilə ilə əlaqədar ailəmlə birlikdə ölkəmə gedəcəyəm. Püşkə uyğun olaraq isə Çempionlar Liqası və Avropa Liqasında çıxış edəcək klublarımızın oyunlarını diqqətdə saxlayacağam. Avqust ayında isə Azərbaycana dönəcəyəm, Premyer Liqanın yeni mövsümünün oyunlarını izləyəcəyəm, millinin seçmə mərhələ çərçivəsində keçirəcəyi qarşılaşmaların hazırlığına başlayacağıq".

## Ronaldo: "Portuqaliya millisinin böyük hücumçusu var"




Portuqaliya millisi və "Real"ın hücumçusu Kriştianu Ronaldo iyunun 12-də "Porto"dan "Milan"a transfer olunan Andre Silvanın potensialını yüksək qiymətləndirib. SİA-nın məlumatına görə, ulduz futbolçu bunları deyib: "Mən karyeramı başa vuranda Portuqaliya millisi etibarlı əllərdə olacaq. Komandanın artıq böyük hücumçusu var. O, Andre Silvadır". Silva isə ona qarşı ünvanlanan təriflərə təmkinlə yanaşır. Gənc forvard özü haqqında danışmaq üçün hələ çox çalışmalı olduğunu qeyd edib. O, DÇ-2018-in seçmə mərhələsində çıxdığı 6 oyunda 6 qol, 1 məhsuldar ötürmənin müəllifi olub.

## "Ferrari" və "Mercedes" Azərbaycan Qran-Prisi üçün eyni şinləri seçiblər




2017-ci ilin Formula-1 yürüşlərində çıxış edən iki ən güclü komanda Azərbaycan Qran-Prisi üçün eyni şinləri seçiblər. SİA motosport.com saytına istinadla xəbər verir ki, "Mercedes" komandasının pilotları Lyuis Hemilton və Valtteri Bottas, habelə "Ferrari" komandasının yürüşçüləri Sebastyan Fettel və Kimi Raykkonen Bakıda hərəyə 8 dəst "SuperSoft", 4 dəst "Soft" və 1 dəst "Medium" şinləri alacaqlar. "Red Bull" komandasının yürüşçüləri Maks Ferstappen və Daniel Rikkardo da hərəsi 8 dəst supersof alacaq, lakin Avstriya komandasında öz pilotları üçün çempionatın liderlərindən 1 dəst artıq "Medium" və müvafiq surətdə 1 dəst az "Soft" şinləri seçiblər. Felipe Massa və Markus Eriksson da hərəyə 2 dəst "Medium" şini alacaq. Yalnız "McLaren" komandasının pilotları Ferrando Alonso və Stoffel Vandornun hərəsinin 10 dəst "SuperSoft" şini olacaq. Qalan komandaların hər biri öz avtoyürüşçüləri üçün Bakı mərhələsində münasib olan ən yumşaq şinlərin 8-9 dəstini sifariş ediblər. Pilotlar yürüşdə ən azı 1 dəst "SuperSoft" və ya "Medium" istifadə etməyə borcludurlar. Bundan əlavə, 1 dəst "SuperSoft" ixtisas yarışlarının üçüncü seqmenti üçün ehtiyat saxlanacaq.

## "Qarabağ" klubu Muarem Muaremlə yollarını ayırıb



"Qarabağ" klubu yarımmüdafiəçisi Muarem Muaremlə yollarını ayırıb. SİA-nın məlumatına görə, makedoniyalı futbolçu ilə başa çatan müqavilə yenilənməyib. Qeyd edək ki, Muarem Muarem 2012/15 mövsümündə Ağdam klubunda oynayıb. Daha sonra Türkiyənin "Eskişehirspor" klubuna keçən 28 yaşlı yarımmüdafiəçi 2016-cı ildə yenidən "Qarabağ"a qayıdıb. O, ötən mövsüm ümumilikdə 34 oyun keçirib və 7 qol vurub.

*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

*Buraxılışa məsul: Mətləb Salahov*
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
*Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.*

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**